Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 113 (8136) CÜMƏ, 24 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham ƏLİYEV: "Biz müasir dövlət qurmuşuq. O dövlət ki, dərin milli-mənəvi təməl üzərində qurulub"



Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müqəddəs "Qurani-Kərim"in nazil olduğu, on bir ayın sultanı mübarək ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirdi.

Mərasimdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış etdilər.

Dövlət başçısı mərasimdə nitq söylədi.

Prezident İlham Əliyev artıq ənənə halı alan iftar mərasimlərinin dövlət-din münasibətlərinin bariz nümunəsinə çevrildiyini bildirdi. "Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev və şeyx həzrətləri dayanır" deyən dövlət başçısı onların şəxsi dostluğunun, xalq və vətən qarşısında gördükləri işlərin bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratdığını vurğuladı. Bildirdi ki, dünyada gərginliyin davam etdiyi bir vaxtda Azərbaycanda sabitliyi qorumaq, xalqın rifahını yaxşılaşdırmaq və ölkəmizi mümkün risklərdən qorumaq bizim əsas vəzifəmizdir. "Biz müasir dövlət qurmuşuq. O dövlət ki, dərin milli-mənəvi təməl üzərində qurulub" deyən Prezident İlham Əliyev islam dəyərlərini milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsi kimi xarakterizə etdi, Azərbaycanın İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya çatdırdığını və bu fəaliyyətin bundan sonra da davam etdiriləcəyini bildirdi.

Dövlət başçısı müsəlman ölkələri ilə dostluq və qardaşlıq əlaqələrinə malik Azərbaycanın bütün müsəlman ölkələri ilə sıx əlaqələr qurduğunu və beynəlxalq müstəvidə bir-birini daim dəstəklədiyini diqqətə çatdırdı, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi islam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verdiyini vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bir daha vurğuladı ki, Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. "Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq" deyən dövlət başçısı Cocuq Mərcanlı kəndinin və orada Şuşa məscidinin bənzərinin inşa olunmasının xalqımızın əyilməz ruhunu təcəssüm etdirdiyini bildirdi. Qeyd etdi ki, Azərbaycanda tarixi, dini abidələr qorunur və son illərdə yüzlərlə məscid tikilib, təmir edilib. Ölkəmizdə dinlərarası münasibətlər də ən yüksək səviyyədə tənzimlənir. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparıldığı mərkəzə çevrilib. Prezident İlham Əliyev Azərbaycanın uğurlu, dayanıqlı inkişafının bundan sonra da təmin olunacağını, ölkə qarşısında duran vəzifələrin icra ediləcəyini bildirdi.

Sonra iftar süfrəsi açıldı.

*(Tədbirdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc olunacaq).*

## *Van Yİ, Çin Xalq Respublikasının xarici işlər naziri:*

## "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi və sosial sabitlik təmin olunub, ölkə iqtisadi baxımdan davamlı inkişaf edir, əhalinin rifah halı ardıcıl surətdə yüksəlir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Çin Xalq Respublikasının xarici işlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı, ilk növbədə, Çində keçirilən II "Bir kəmər, bir yol" Beynəlxalq Forumuna dəvətə görə Çin tərəfinə minnətdarlığını bildirərək, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev forumun uğurla keçirilməsi və bu mötəbər beynəlxalq tədbirdə qəbul olunan qərarlar münasibətilə təbriklərini çatdırdı. Dövlət başçısı, eyni zamanda, Çin Xalq Respublikasının Sədri Si Cinpinin 28 May - Respublika Günü münasibətilə təbrik məktubunu göndərməsi ilə bağlı minnətdarlığını çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev bildirdi ki, Çinə son səfəri zamanı Çin Prezidenti ilə keçirilən görüşlər və aparılan səmərəli müzakirələr əlaqələrimizin strateji xarakter daşıdığını bir daha təsdiq etdi. Dövlət başçısı Çin Xalq Respublikasının xarici işlər nazirinin ölkəmizə səfərinin Azərbaycan ilə Çin arasında əməkdaşlığın çox yüksək səviyyədə olmasını nümayiş etdirdiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir. İkitərəfli münasibətlərə toxunan dövlət başçısı siyasi əlaqələrimizin yüksək səviyyədə və iqtisadi-ticari sahədə əməkdaşlığımızın yaxşı perspektivlərə malik olduğunu qeyd etdi. Prezident İlham Əliyev bir daha Çin Xalq Respublikasına səfərini xatırlayaraq, orada Çinin aparıcı şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərin ölkələrimiz arasında ticarət, investisiya sahələrində və digər sahələrdə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı.

Dövlət başçısı bildirdi ki, Azərbaycan Asiya və Avropa arasında vacib tranzit məntəqəsinə çevrilib və nəqliyyat sahəsinin inkişaf etdirilməsi ölkəmizin prioritetlərindən biridir. Prezident İlham Əliyev dedi ki, Azərbaycan "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri olub və ölkəmizin nəqliyyat infrastrukturundan bu layihə çərçivəsində nəqliyyat daşımaları üçün istifadə edilə bilər.

Xarici işlər naziri Van Yi Çin Xalq Respublikasının Sədri və onun qeyd etdiyi kimi, Prezident İlham Əliyevin dostu Si Cinpinin salamlarını dövlət başçısına çatdırdı. Qonaq Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edərək, Bakının dünyada məşhur şəhər olduğunu və ilk saatlardan paytaxtımızın gözəlliyinin dərin təəssürat bağışladığını dedi. O bildirdi ki, Çin-Azərbaycan əlaqələri strateji xarakter daşıyır və ölkəsi Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Van Yi qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi və sosial sabitlik təmin olunub, ölkəmiz iqtisadi baxımdan davamlı inkişaf edir, əhalinin rifah halı ardıcıl surətdə yüksəlir, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daim artır və möhkəmlənir. Ölkəmizin uğurlarının Çində maraqla izlənildiyini bildirən qonaq əldə olunan bu nailiyyətlər və eyni zamanda, qarşıdan gələn 28 May - Respublika Günü münasibətilə təbriklərini çatdırdı.

Dövlət başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycanla Çin arasında əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı, nəqliyyat, enerji, sənaye, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi aparıldı.

# Almaniya Azərbaycanı Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə kimi qəbul edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin regionlardan başlamasının qonaqların Azərbaycan haqqında daha geniş məlumata malik olmaları üçün yaxşı imkan yaratdığını bildirdi. İkitərəfli münasibətlərə toxunan Prezident İlham Əliyev Almaniya Kansleri Angela Merkelin Azərbaycana ilk səfərini xatırlayaraq, bunu əlaqələrimizin inkişafında tarixi hadisə kimi dəyərləndirdi və səfərin çox uğurla keçdiyini qeyd etdi. Eyni zamanda, Prezident İlham Əliyev özünün də Almaniyaya səfərlərinin münasibətlərimizin möhkəmləndirilməsinə töhfə verdiyini bildirdi. Dövlət başçısı əməkdaşlığımızın çox yüksək səviyyədə və yaxşı perspektivlərə malik olduğunu dedi. Prezident İlham Əliyev ölkələrimizin biznes dairələri arasında da əlaqələrin uğurla inkişaf etdiyini, ölkəmizdə xeyli sayda Almaniya şirkətlərinin müxtəlif layihələrdə iştirakının önəmini vurğuladı. Dövlət başçısı parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafı baxımından rolunu qeyd etdi.

Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars paytaxt Bakının və ölkəmizin regionlarının onlarda böyük təəssürat yaratdığını dedi, həmçinin Qəbələyə səfərləri zamanı məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərlə tanış olduqlarını bildirdi. Yohannes Kars Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə olduğunu xüsusi vurğuladı.

Görüşdə parlamentlərarası əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm əhəmiyyət daşıdığı bildirildi, Azərbaycan və Almaniya arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.




## UEFA İcraiyyə Komitəsi Bakıda toplaşır

Dünyanın idman paytaxtlarından birinə çevrilən Bakı bir neçə gündən sonra Avropanın nüfuzlu klub turnirləri olan UEFA Avropa Liqasının finalına evsahibliyi edəcək. Bakı Olimpiya Stadionunda keçiriləcək həlledici matçda İngiltərənin "Çelsi" və "Arsenal" komandaları üz-üzə gələcəklər. Bir sözlə, Bakıda London derbisi oynanılacaq, paytaxtımızda əsl futbol festivalı yaşanacaq.

Azərbaycanın belə bir yüksək səviyyəli turnirin finalını keçirmək hüququnu əldə etməsi Avropa futbol ictimaiyyətinin ölkəmizə etimadından irəli gəlir. Bu cür mötəbər final qarşılaşmasına evsahibliyi etmənin nailiyyətlərində də məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır.

*Ardı 5-ci səh.*

# Dünyanın aparıcı neft-qaz və energetika mütəxəssisləri yenə də Azərbaycanda görüşəcəklər

## Mayın 29-da Bakıda ənənəvi Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi açılacaq

Bu il 29 may-1 iyun tarixlərində Bakı Ekspo Mərkəzində 26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi keçiriləcək.

Caspian Oil&Gas Azerbaijan

Bu sərginin keçirilməsi artıq ənənəyə çevrilib və o, hər il regionun əsas neft-qaz layihələrini müzakirə etmək üçün sahənin tanınmış şirkətlərini, səriştəli mütəxəssislərini bir araya gətirir.

Xəzər Neft və Qaz Sərgisi ilk dəfə 1994-cü ildə - Azərbaycan neft sənayesinin və ümumilikdə ölkə iqtisadiyyatının inkişafında yeni dövrün başlanğıcını qoyan "Əsrin müqaviləsi" ərəfəsində ümummilli lider Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə keçirilib. Həmin vaxtdan etibarən bu tədbir təkcə regionun deyil, bütün dünyanın neft, qaz və energetika sahəsində fəaliyyət göstərən peşəkarların görüş yerinə çevrilib.

*Ardı 5-ci səh.*

# Azərbaycan öz inkişafı ilə antiazərbaycançı dairələrin planlarını alt-üst edir

## Çirkli reputasiyaya malik "Amnesty International" kimi təşkilatlar həqiqət qarşısında yenə də məğlubiyyətə məhkumdurlar

Azərbaycanın dinamik inkişafı ilə, yerləşdiyi məkanın siyasi və iqtisadi imkanlarından səmərəli formada yararlanmaqla Cənubi Qafqazın aparıcı dövlətinə çevrilməsi müasir tariximizin mühüm uğurudur.

Hər ötən il Azərbaycanın artan gücünü və imkanlarını nümayiş etdirir, ölkəmizin beynəlxalq imicini artıran mühüm hadisələr kimi tarixə yazılır.

Ən əsası odur ki, respublikamız öz uğurlarını çağdaş dünyamızın təbəddülatlarla dolu günlərində qazanır. Dünyanın müxtəlif bölgələrində gedən mürəkkəb proseslər, ayrı-ayrı ölkələrdə müşahidə olunan gərginlik fonunda Prezident İlham Əliyevin yürütdüyü düşünülmüş, qətiyyətli və praqmatik siyasət ölkəmizin milli maraqlarının qorunmasını, Azərbaycanda sabitliyi, təhlükəsizliyi və hər bir sahənin harmonik inkişafını təmin edir.

*Ardı 5-ci səh.*

# İslam dəyərləri milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahında təşkil olunan iftar mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu yaxınlarda həmin ziyarətgahda olarkən iftar süfrəsinə dəvət edilmişdilər.

İftar mərasiminə toplaşanlar Azərbaycandakı sosial-iqtisadi inkişafa, əmin-amanlığa görə təşəkkürlərini bildirdilər. Onlar Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ölkəmizin inkişafı istiqamətində gördükləri işləri yüksək qiymətləndirdilər, belə mərasimlərin tezliklə Qarabağda da keçiriləcəyinə əminliklərini ifadə etdilər.

Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun sakinləri ilə görüşməkdən şad olduğunu bildirdi, müqəddəs ramazan ayında onların dualarının qəbul olunmasını və Allah-taalanın ölkəmizi hər zaman qorumasını arzuladı.

İftar mərasimində "Qurani-Kərim"dən ayələr və iftar duası oxundu.



Müqəddəs Kitabımız olan "Qurani-Kərim"in nazil olduğu ramazan ayı insanların qəlbini nurlandıran, onları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda xeyirxah əməllərin, mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Mübarək ramazan günlərində gözəl ənənəyə çevrilən iftar süfrələrinin təşkil edilməsi də cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsidir. Ramazanın önəmli mərasimlərindən biri olan iftar süfrələrinin mənası sadəcə ehtiyacı olanlara yemək vermək deyil, paylaşmaq, yaxınlaşmaq, birlikdə Allaha dua etməkdir. Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulub. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir.

# Almaniya Azərbaycanla münasibətlərin dərinləşməsində maraqlıdır

Milli Məclisin Sədri Oqtay Əsədov mayın 23-də ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Sosial Demokrat Partiyası, Almaniya-Cənubi Qafqaz parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.



Milli Məclisin Sədri Oqtay Əsədov bu səfərin Azərbaycan-Almaniya əlaqələrinin inkişafı baxımından əhəmiyyətli olacağını bildirdi. Qeyd etdi ki, Azərbaycan tərəfi bu sür qarşılıqlı səfərləri yüksək qiymətləndirir. İki ölkə arasındakı münasibətlərin zəngin tarixi var. 2016-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" sərəncam imzalayıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra münasibətlərimiz yeni məna kəsb edib. Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri bu baxımdan ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynayır. Bu günədək Azərbaycanla Almaniya arasında 77 hüquqi sənəd imzalanıb, 14 sənəd baxılmaqdadır.

Bildirildi ki, iqtisadi sahədə də əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Almaniya Azərbaycanın Avropada ən mühüm iqtisadi tərəfdaşlarındandır. Ölkələrimiz arasında 2018-ci ildə ticarət dövriyyəsinin həcmi təqribən 1,9 milyard ABŞ dolları olub. Bu rəqəm ötən dövrün göstəricisindən 39,4 faiz çoxdur. Cari ilin birinci rübündə ticarət dövriyyəsinin həcmi 590 milyon ABŞ dolları təşkil edib. İqtisadi potensial imkan verir ki, bu göstəricilər gələcəkdə daha yüksək olsun. Azərbaycan təşəbbüskarı və fəal iştirakçısı olduğu qlobal neft və qaz kəmərləri ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında qətiyyətli mövqe nümayiş etdirir. Ölkəmiz Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının iştirakçısıdır.

Spiker Almaniya Bundestaqında və Milli Məclisdə parlamentlərarası əlaqələr üzrə qrupların fəaliyyət göstərməsini də təqdir etdi. Qeyd etdi ki, son illər bu əlaqələrimiz intensiv xarakter almağa başlayıb. Arzu edərdik ki, hər iki ölkə rəsmiləri arasında qarşılıqlı səfərlər mütəmadi xarakter daşısın.

Dağlıq Qarabağ münaqişəsindən söz açan Oqtay Əsədov problemin həllinin bölgənin inkişafı üçün əhəmiyyətindən danışdı. Bildirdi ki, münaqişənin tezliklə beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həlli regionun iqtisadi tərəqqisinə böyük təkan verər. Biz münaqişənin sülh yolu ilə həllində aidiyyəti qurumların və beynəlxalq birliyin məsələyə ədalətli və həssas yanaşacağına inanırıq.

Almaniya Bundestaqının Sosial Demokrat Partiyası, Almaniya-Cənubi Qafqaz parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yohannes Kars ölkəmizə səfərindən və keçirdikləri görüşlərdən məmnun qaldıqlarını dedi. Bildirdi ki, o, ölkəmizdə ilk dəfə 1999-cu ildə olub. Budəfəki səfərində müstəqil Azərbaycanın bölgələrinin və paytaxt Bakının sürətlə inkişaf etdiyini müşahidə edib. Bütün bunlar Azərbaycanın dostu kimi onları da sevindirir. Avropa İttifaqının üzvü olan Almaniya Cənubi Qafqazın bu bölgəsi ilə münasibətlərin dərinləşməsində maraqlıdır.

Yohannes Kars qeyd edib ki, Bundestaqla Milli Məclis arasında əməkdaşlığın genişlənməsi ümumi məqsədlərə xidmət edir. Qarşıya qoyulan hədəflərə çatmaq üçün parlament diplomatiyası əhəmiyyətli rol oynayır. Qonaq Almaniya Bundestaqı sədrinin salamlarını Oqtay Əsədova çatdıraraq, Almaniya parlamentində Azərbaycanın qanunvericilik orqanı ilə əlaqələrin inkişafına böyük maraq olduğunu söyləyib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və dost Azərbaycan xalqını İtaliya xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan və İtaliya möhkəm əlaqələrlə bir-birinə sıx bağlıdırlar və bu bağlılıq illər ərzində siyasi, iqtisadi, enerji və mədəniyyət sahələrində məhsuldar tərəfdaşlıqda öz əksini tapmışdır. Ümid edirəm ki, bu əməkdaşlıq daha da zənginləşəcək və ölkələrimizin vətəndaş cəmiyyətləri, iqtisadi sistemləri, həmçinin gənc nəsillərimizin maraqları istiqamətində yeni sahələr üzrə genişlənəcəkdir.

İnanıram ki, əlaqələrimizin möhkəmləndirilməsi, regional və beynəlxalq səviyyələrdə birgə maraq dairəsində olan mövzular üzrə dialoqun intensivləşdirilməsi üçün möhtəşəm çərçivə hesab edilən Bakı və Avropa İttifaqı arasında yeni bir tərəfdaşlıq sazişi müəyyənləşdirmək üçün qətiyyətlə və ruh yüksəkliyi ilə yolumuza davam edəcəyik.

Bu arzularla və Sizi Romada qəbul etmək ümidi ilə Sizə və bütün Azərbaycan xalqına rifah diləyirəm.

*Dərin hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və qardaş Azərbaycan xalqını Qazaxıstan xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan rəqabətqabiliyyətli, dinamik inkişaf edən dövlət kimi iqtisadi, sosial və mədəni-humanitar sahələrdə nailiyyətləri ilə dünya birliyində layiqli yer tutur.

Bununla əlaqədar olaraq arzu edirəm ki, ölkəniz Sizin rəhbərliyiniz ilə daha intensiv inkişaf etsin və xoş məramlarına çatsın.

Ürəkdən inanıram ki, Qazaxıstan ilə Azərbaycan arasında mövcud olan ənənəvi dostluğa və qarşılıqlı anlaşmaya əsaslanan strateji əməkdaşlıq bundan sonra da iki ölkənin xalqlarının rifahı naminə inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə məsul vəzifənizdə böyük uğurlar, dost Azərbaycan xalqına firavanlıq və tərəqqi arzu edirəm.

*Ən xoş arzularla,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

---

Bizə dost ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Xalqınızın ümid və arzularının həyata keçirilməsində Sizin uğurlarınızın davamlı olmasını ürəkdən arzulayıram.

Fürsətdən istifadə edərək, dost xalqlarımızın maraqlarına uyğun olaraq bütün sahələrdə qarşılıqlı əməkdaşlığımızın inkişaf etdirilməsinə ümidvar olduğumu bildirmək istərdim.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına rifah və tərəqqi arzu edirəm.

*Böyük hörmət və ehtiramla,*

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizi və Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm. Zati-aliləri, Sizə Uca Allahdan möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah diləyirəm.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası ilə sıx əlaqələri, ölkənizin təşkilatımıza dəstəyini, təşkilatın yaradılmasının məqsədi olan islam həmrəyliyinin təbliğində rolunu yüksək qiymətləndirir. Əmin ola bilərsiniz ki, İslam Əməkdaşlıq Təşkilatı üzv ölkələr arasında birgə dəyərləri təbliğ etmək, qarşılıqlı əməkdaşlığı gücləndirmək üçün səylərini bundan sonra da davam etdirəcək.

Əminəm ki, zati-aliniz üzv ölkələrin xalqları arasında əməkdaşlığın və islam həmrəyliyinin möhkəmləndirilməsinə dəstəyini və töhfələrini bundan sonra da əsirgəməyəcək.

Cənab Prezident, ən yüksək ehtiramımı və hörmətimi qəbul etməyinizi xahiş edirəm.

*Qardaşınız,*

***Yusif bin Əhməd əl-USEYMİN,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

# Vətəndaşların qanunvericilik təşəbbüsü hüququ qanunla tənzimlənəcək

Mayın 23-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" qanun layihəsi müzakirə olundu.

Komitənin sədri Əli Hüseynli bildirdi ki, bu layihə cəmiyyətdən gələn təklif əsasında qısa müddətdə parlamentdə yaradılmış işçi qrup tərəfindən hazırlanıb. Komitə sədri dedi ki, Avropa Şurasına üzv ölkələrin əksəriyyətində bu cür qanunlar qəbul edilib.

Sonra 10 maddədən ibarət qanun layihəsi barədə ətraflı məlumat dinlənildi. Bildirildi ki, bu sənəd Azərbaycan Konstitusiyasında təsbit olunmuş müddəalara uyğun hazırlanıb, müvafiq qanunvericiliklə bağlı beynəlxalq təcrübə nəzərə alınıb. Avropa İttifaqı ölkələrinin, Finlandiya və Portuqaliyanın təcrübəsi öyrənilib. Qanun Azərbaycan vətəndaşının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasını müəyyən edir və həmin sahədə yaranan münasibətləri tənzimləyir.

Deputatlardan Azay Quliyev, Çingiz Qənizadə, Fəzail Ağamalı, Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Mərkəzi Seçki Komissiyasının nümayəndəsi Rövzət Qasımov layihə ilə bağlı fikirlərini, təkliflərini bildirdilər.

Yekunda qanun layihəsi plenar iclasa tövsiyə olundu.

***"Azərbaycan"***

# Regionda mühüm rola malik Azərbaycan Almaniya üçün çox vacib tərəfdaşdır

Mayın 23-də ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Sosial Demokrat Partiyası, Almaniya-Cənubi Qafqaz parlamentlərarası əlaqələr üzrə işçi qrupu Milli Məclisdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev Azərbaycanın Almaniya ilə münasibətlərə böyük önəm verdiyini və ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu deyib. Bildirib ki, belə səfərlərin sayının artırılması vacibdir.

Qonaqlara ölkəmizin əldə etdiyi uğurlar, reallaşdırdığı layihələr, qanunyaradıcılığı prosesi barədə ətraflı məlumat verilib.

Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars Azərbaycanda 20 il əvvəl olduğunu və ötən dövrdə ölkəmizin çox inkişaf etdiyini, gözəlləşdiyini bildirib. Qonaq ölkəmizə Gürcüstan sərhədindən avtomobillə gəldiklərini, buna görə də təkcə Bakıdakı deyil, regionlardakı inkişafın da şahidi olduqlarını qeyd edib. Bildirilib ki, Azərbaycan regionda mühüm rola malikdir və Almaniya üçün çox vacib tərəfdaşdır.

Söhbət zamanı Azərbaycan-Almaniya münasibətlərinin daha da inkişaf edəcəyinə əminlik ifadə olunub.

Görüşdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Əli Hüseynli, Tahir Mirkişili, Sevinc Hüseynova, Asim Mollazadə, hər iki ölkənin səfirləri Ramin Həsənov və Mixael Kindsqrab iştirak ediblər.

# Təlimlərin gecə vaxtı döyüş atışlı mərhələsi keçirilib





Silahlı Qüvvələrin genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin gecə vaxtı döyüş atışlı mərhələsi keçirilib.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələdə qoşunlar düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi tapşırıqlarını yerinə yetirib.

Mürəkkəb dağlıq relyef və radioelektron mübarizə, həmçinin təlimlərin niyyəti ilə müəyyən edilmiş digər xarakterik xüsusiyyətlər şəraitində keçirilən təlimlərdə qoşunların müasir ümumqoşun əməliyyatlarının keçirilməsinin müxtəlif üsullarının icrası üzrə bacarıq və vərdişləri praktiki olaraq təkmilləşdirilib, qoşunların və idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə səmərəli tətbiqi həyata keçirilib. Müxtəlif təlim poliqonlarında motoatıcı və tank bölmələri raket və artilleriya qurğularından, zenit-raket komplekslərindən, təyyarə və helikopterlərdən döyüş atışlarını və praktiki raket buraxılışlarını icra edib.

Döyüş atışlı mərhələnin yekununda hərbi qulluqçularla görüşdə çıxış edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimlərin əhəmiyyətini qeyd edərək qoşunların peşəkarlığını və şəxsi heyətin hazırlığını yüksək qiymətləndirib.

*Müdafiə Nazirliyi:*

# "Armen Qriqoryanın səsləndirdiyi sərsəm fikirlər gülüncdür"

Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın səsləndirdiyi sərsəm fikirlər gülüncdür və onun hərb işində diletant olduğunu göstərir.

AZƏRTAC xəbər verir ki, bu fikir Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın səsləndirdiyi fikirlərə münasibət bildirən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

Nazirliyin məlumatında bildirilib ki, nəinki Azərbaycanın işğal olunmuş əraziləri, hətta Ermənistanın bütün ərazisi tamamilə Azərbaycan Ordusunun bölmələrinin nəzarəti və müşahidəsi altındadır.

# Qafqaz tarixin bütün dövrlərində diqqət mərkəzində olub

## Bakıda Qafqazşünasların II Beynəlxalq Forumu başlayıb





Mayın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda Qafqazşünasların II Beynəlxalq Forumu işə başlayıb. İki gün davam edəcək forumda Azərbaycan, Rusiya, Türkiyə, ABŞ, Belarus, Şimali Makedoniya, İran, Qazaxıstan, Özbəkistan, Ukrayna və Gürcüstandan 220-dən çox alim və tədqiqatçı iştirak edir.

Forum iştirakçıları Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, AMEA-nın Mərkəzi Elmi Kitabxanasında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə beynəlxalq forumun əhəmiyyətindən danışıb. Bildirib ki, birinci forumla müqayisədə bu il iştirakçıların sayının artması Azərbaycan qafqazşünaslıq elminə marağın göstəricisidir. Dünyanın çox ölkəsində Qafqazla bağlı araşdırmalar aparılır. Amma bu gün Azərbaycan, Bakı Qafqazın öyrənilməsi, Qafqaz problemlərinin araşdırılması sahəsində apardığı işlərə görə qafqazşünaslığın mərkəzinə çevrilir.

AMEA-nın prezidenti qeyd edib ki, Qafqaz tarixin bütün dövrlərində diqqət mərkəzində olub. Ümummilli lider Heydər Əliyev Qafqaz problemlərindən danışarkən deyirdi: "Qafqaz dünyanın böyük dövlətlərinin diqqət mərkəzindədir, dünyanın diqqətini cəlb edir".

Akif Əlizadə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox azərbaycanlının daimi yaşayış yerlərindən didərgin salındığını deyib. Bildirib ki, Qafqaz regionunda mövcud olan bir çox problemlərin başlıca səbəbi Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti ilə bağlıdır. Akademik tədbirdə iştirak edən alim və mütəxəssisləri bu kimi problemlərə obyektiv yanaşmağa və onların həlli ətrafında öz səylərini birləşdirməyə çağırıb.

Forumun plenar və bölmə iclaslarında dinlənilən məruzələrin, aparılan müzakirələrin qafqazşünaslıq elminə töhfə verəcəyini deyən akademik Akif Əlizadə tədbir iştirakçılarına uğurlar arzulayıb.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında qeyd edib ki, Qafqaz ölkəsi olaraq yaşadığımız regionu, burada baş verən prosesləri dərindən öyrənməliyik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Biz dünyada, bölgədə gedən prosesləri izləyərək çalışmalıyıq ki, ölkəmiz üçün riskləri nə qədər mümkünsə minimum səviyyəyə endirək". AMEA-nın Qafqazşünaslıq İnstitutu bu sahədə mühüm işlər görür. Belə ki, institutda həm tədqiqatlar aparılır, həm də bu sahədə aparılan araşdırmalar sistemləşdirilir. Bu gün institut tərəfindən təşkil olunan forum Azərbaycan qafqazşünaslıq elmində atılan təqdirəlayiq addımdır. Ümid edirəm ki, forum qafqazşünaslıq elminin inkişafına müsbət təsir göstərəcək.

AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova forum çərçivəsində müxtəlif mövzularda müzakirələrin aparılacağını söyləyib. O, tədbirin sonunda müsbət nəticələrin əldə olunacağına əminliyini ifadə edib. Bildirib ki, forum Qafqaz tarixinin öyrənilməsində yeni səhifələrin açılmasına, innovativ ideyaların irəli sürülməsinə təkan verəcək. Eyni zamanda, görkəmli alimlərin birgə fəaliyyəti nəticəsində Qafqaz ölkələrində yaşayan xalqlar arasında qarşılıqlı anlaşma sürətlənəcək, dostluq münasibətləri daha da möhkəmlənəcək. Akademik belə tədbirlərin həm azərbaycanlıların öz tarixini yenidən dərk etmələrinə, həm də ölkəmizin dünya tarixində rolunun və yerinin müəyyənləşməsinə müsbət təsir edəcəyini vurğulayıb.

Çıxışlardan sonra akademik Akif Əlizadənin sədrliyi ilə keçirilən plenar iclasda Milli Məclisin deputatı, Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı "Qafqazşünaslığın aktual problemləri: mövcud vəziyyət və perspektivlər" mövzusunda məruzə edib. Alim Qafqazşünaslıq İnstitutunda Qafqazın daha çox siyasi-ictimai və beynəlxalq münasibətlər müstəvisində öyrənildiyini qeyd edib. Bildirib ki, bu gün ABŞ-dan Çinə, Yaponiyaya qədər bütün ölkələrdə onlarla qafqazşünaslıq mərkəzi fəaliyyət göstərir. Qafqazın geosiyasi mövqeyi, Şərqlə Qərb arasında körpü rolunu oynaması, eləcə də Böyük İpək yolunun üzərində yerləşməsi bu regionun öyrənilməsinə göstərilən böyük marağın əsas səbəblərindəndir.

"Bu gün zəngin təbii sərvətlərə və kifayət qədər beynəlxalq nüfuza malik olan Qafqazın başlıca problemi terrordur" deyən professor Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticələrinin aradan qaldırılmasının həlli vacib məsələlərdən olduğunu diqqətə çatdırıb.

Forum 24 bölmə iclasını əhatə edir. Bölmələrdə "Qafqaz regionunda ictimai-siyasi proseslər", "Qafqazda münaqişələr və terror", "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü", "Qafqaz ölkələrinin qarşılıqlı münasibətləri, xarici siyasəti və böyük dövlətlərin region siyasəti", "Qafqazda geosiyasi şərait", "Qafqazda sivilizasiyaların və mədəniyyətlərin qarşılıqlı əlaqəsi" mövzularında müzakirələr aparılacaq. Xatırladaq ki, Qafqazşünasların I Beynəlxalq Forumu 2017-ci ildə keçirilib.

# Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Kiyevdə müalicə alan Milli Qəhrəmanımızla görüşüb





Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Ukraynanın paytaxtı Kiyev şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, Eldar Əzizov əvvəlcə ümummilli lider Heydər Əliyevin adını daşıyan istirahət parkında ulu öndərin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüb.

Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısına park haqqında məlumat verib.

Sonra Eldar Əzizov Kiyev şəhərində insult keçirən Milli Qəhrəman Zabit Quliyevin müalicə aldığı A.P.Romodanova adına Neyro-Cərrahiyyə İnstitutuna gəlib. Eldar Əzizov qeyd edib ki, dövlətimizin başçısının birbaşa göstərişi ilə Milli Qəhrəmanın müalicəsi nəzarət altında saxlanılır. Azərbaycan dövləti hər zaman milli qəhrəmanlarımıza, şəhid ailələrinə, vətən uğrunda döyüşən hər bir vətəndaşına xüsusi qayğı ilə yanaşır, yardım edir.

Z.Quliyev ona göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

# "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflərin təqdimatı

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il mayın 16-da "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb, tədbirlər planı təsdiq edilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Naxçıvan Muxtar Respublikasının həyatında "Duzdağ" Fizioterapiya Mərkəzinin xüsusi rolu vardır. Ötən 40 ildə mərkəz uğurla fəaliyyət göstərmiş, kollektiv formalaşmışdır. Sovetlər birliyi dövründə şəraitin olmaması həm müalicə alan xəstələr, həm də kollektiv üçün çətinliklər yaradırdı. Lakin müstəqillik illərində "Duzdağ" Fizioterapiya Mərkəzi yenidən qurularaq müasir səhiyyə müəssisəsinə çevrilmişdir. 50 çarpayı ilə fəaliyyətə başlayan mərkəzdə hazırda 500-ə yaxın xəstə eyni vaxtda müalicə alır. Hər il 4 minə yaxın insan mərkəzə müraciət edir. Vaxtilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olan mərkəz bu gün publik hüquqi şəxs kimi fəaliyyət göstərir. Kollektiv işini düzgün qurmuş, "Duzdağ" Fizioterapiya Mərkəzi muxtar respublikanın brendinə çevrilmişdir".

Ali Məclisin Sədri deyib: "Duzdağ" Fizioterapiya Mərkəzi bu gün muxtar respublikanın tanıdılması və təbliğində mühüm rola malikdir. Çünki təbii sərvətimiz olan duzdan həm məişətimizdə geniş istifadə olunur, həm də duz şaxtalarında yaradılmış səhiyyə müəssisəsi insanlara şəfa verir. Dünyanın müxtəlif ölkələrindən mərkəzə müraciət edən insanlar hərtərəfli müalicə almaqla yanaşı, eyni zamanda Naxçıvanı da təbliğ edirlər. Bu da turizmin inkişafına töhfədir. Ölkələr adətən turizmin bir sahəsi üzrə ixtisaslaşırlar. Lakin bu gün Naxçıvan Muxtar Respublikasında turizmin müxtəlif növləri, o cümlədən sağlamlıq turizmi inkişaf edir. Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin inşası başa çatdıqdan sonra isə bu sahədə imkanlar daha da genişlənəcəkdir. Ona görə də təbii sərvətlərimizdən səmərəli istifadə edilməli, onlar elmi şəkildə öyrənilməli və gələcək nəsillərə çatdırılmalıdır".

Ali Məclisin Sədri mərkəzin fəaliyyətinin genişləndirilməsinin daim diqqətdə saxlanılacağını bildirib, yubiley münasibətilə kollektivi təbrik edib və işlərində uğurlar arzulayıb.

Sonra təltiflər təqdim edilib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 22 may tarixli sərəncamına əsasən "Duzdağ" Fizioterapiya Mərkəzinin əməkdaşlarından 1-i "Əməkdar həkim", 2-si "Əməkdar tibb işçisi", 3-ü "Rəşadətli əməyə görə" nişanı, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva isə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunub.

Ali Məclisin Sədri fəxri adları və nişanları təqdim edib.

Təltif olunanlardan Darçın Eyvazova, Leyla Vəliyeva, Təranə Əliyeva, Sevda Həsənova və Zəminə İbrahimova minnətdarlıq edərək deyiblər ki, "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin qeyd olunması əlamətdar hadisədir. Bu münasibətlə təltif olunmağımız isə məsuliyyətimizi ikiqat artırır. Təltif olunanlar göstərilən etimadı layiqincə doğruldacaqlarına söz veriblər.

Sonda xatirə şəkli çəkdirilib.

# Bakıda MDB ölkələri Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin iclası



Mayın 23-də Bakıda Müstəqil Dövlətlər Birliyi (MDB) dövlətlərinin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin 19-cu iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda MDB-yə üzv ölkələrin - Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistanın gömrük xidmətlərinin hüquq mühafizə bölmələrinin başçıları, eləcə də müşahidəçi qismində Latviya və Estoniya gömrük xidmətlərinin hüquq mühafizə bölmələrinin rəhbərləri, həmçinin MDB-yə üzv dövlətlərin Terrorizmə Qarşı Mübarizə Mərkəzinin, Mütəşəkkil Cinayətkarlığa və Digər Təhlükəli Cinayət Növlərinə Qarşı Mübarizənin Əlaqələndirilməsi Bürosunun və Müstəqil Dövlətlər Birliyinin sərhəd qoşunlarına rəhbərlik edən Şuranın əlaqələndirmə xidmətinin nümayəndələri iştirak ediblər.

İclasda Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev qeyd edib ki, Azərbaycan Gömrük Xidməti gömrük işinin hüquq mühafizə sahəsinə xüsusi diqqət göstərir, bu sahədə regional və beynəlxalq əməkdaşlığa böyük önəm verir.

Ə.Abdullayev ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi inkişaf strategiyasının nəticəsi olaraq ölkənin gömrük orqanlarının sürətlə inkişaf etdiyini vurğulayıb, bütün sahələrdə olduğu kimi, qaçaqmalçılığın, hüquqpozmaların qarşısının alınması istiqamətində də mühüm nailiyyətlərin əldə olunduğunu diqqətə çatdırıb. Son illər gömrük sistemində aparılan islahatların, "Yaşıl dəhliz" buraxılış sisteminin tətbiqinin ticarətin asanlaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, şəffaflığın təmin olunması ilə yanaşı, qaçaqmalçılığa qarşı mübarizə tədbirlərinin də effektivliyinin artırılmasında, təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığı qeyd edilib. O, iclasda aparılan müzakirələrin təcrübə mübadiləsinin və hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsinə, iştirakçı ölkələrin hüquq mühafizə sahəsindəki fəaliyyətinə fayda verəcəyinə əminliyini ifadə edib.

Rusiya Federasiyası Federal Gömrük Xidməti rəhbərinin müavini Oleq Qubaydulin iclasın səmərəli keçirilməsi üçün yaradılan şəraitə, diqqət və qayğıya görə Azərbaycan hökumətinə, eləcə də Dövlət Gömrük Komitəsinin rəhbərliyinə təşəkkürünü bildirib.

O.Qubaydulinin sədrliyi ilə keçirilən iclasın gündəliyinə əsasən, əvvəlcə komitənin fəaliyyət strategiyasının reallaşdırılması ilə bağlı vəziyyət barədə iclas sədrinin məlumatı dinlənilib.

Daha sonra Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsi rəisinin birinci müavini, gömrük xidməti general-mayoru Güloğlan Muradlı "Gömrük sahəsində cinayət və hüquqpozmaların qarşısının alınması işinin təşkili üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təcrübəsi" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dayanıqlı və davamlı inkişaf strategiyasına uyğun olaraq ölkənin sürətlə inkişaf etdiyi, xarici ticarət dövriyyəsinin, Azərbaycan üzərindən həyata keçirilən tranzit daşımalarının və ölkəyə səyahət edənlərin sayının artdığı vurğulanıb. Gömrük sistemində həyata keçirilən islahatlar barədə də məlumat verilib, tətbiq edilən yeniliklərin qaçaqmalçılıq və hüquqpozmalara qarşı mübarizə sahəsində mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaratdığı diqqətə çatdırılıb.

Eyni zamanda, təqdimatda Azərbaycan gömrüyünün hüquq mühafizə sahəsindəki fəaliyyəti - yeniliklər və islahatların müsbət təsiri, qaçaqmalçılığın və narkotik maddələrin dövriyyəsinə qarşı mübarizə istiqamətində əldə olunan nəticələr, müasir informasiya texnologiyalarının tətbiqi və digər məsələlərlə bağlı məlumat verilib.

Sonra digər iştirakçı ölkələrin nümayəndələrinin çıxışları dinlənilib, iclasın gündəliyindəki məsələlər müzakirə olunub.

# Azərbaycan-Çin münasibətləri inkişaf edir

Mayın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Çin Xalq Respublikasının xarici işlər naziri Van Yi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib ki, tərəflər Azərbaycan və Çin arasında ənənəvi əməkdaşlığın uğurlu inkişafından məmnunluqlarını bildiriblər. Nazirlər hər iki tərəfin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə birmənalı dəstəyin göstərilməsinə dair öz prinsipial mövqelərini dəyişməz saxladıqlarını, Azərbaycan-Çin münasibətlərinin möhkəm siyasi və beynəlxalq hüquqi əsaslarının mövcudluğunu vurğulayıblar.

Nazirlər hər iki dövlətin başçıları səviyyəsində qarşılıqlı əlaqələrin xüsusi əhəmiyyətini qeyd ediblər və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə sonuncu işgüzar səfərinə və Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşünün nəticələrinin ruhuna uyğun olaraq, əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bildiriblər ki, Azərbaycan Çinin Avrasiya məkanında əsas tərəfdaşlarından biridir və "Bir kəmər, bir yol" layihəsinin icrasında fəal iştirak edir. Şərq və Qərbi, Asiya və Avropanı birləşdirən bu layihənin icrası artıq iki ölkənin və bütövlükdə regionun xalqları üçün bir sıra nəticələr və maddi faydalar gətirib. Bu xüsusda "Bir kəmər, bir yol" strategiyası çərçivəsində Transxəzər nəqliyyat dəhlizinin vacibliyi bir daha vurğulanıb. Nazirlər bu prosesin dinamik davam etdirilməsinin birgə inkişaf və rifah maraqlarına uyğun olaraq, bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın ardıcıl şəkildə dərinləşdirilməsinə kömək edəcəyinə əminlik ifadə ediblər.

Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın mövcud olduğunu məmnuniyyətlə qeyd ediblər və gələcəkdə də bunu davam etdirmək niyyətlərini bildiriblər.

Görüş nəticəsində tərəflər arasında mövcud olan qarşılıqlı anlaşmanın səviyyəsini yüksək qiymətləndirən nazirlər Azərbaycan-Çin əməkdaşlığının davam edən inkişafının hər iki ölkənin xalqlarının mənafeyinə uyğun həyata keçirilməsində, qlobal və regional səviyyələrdə sülh və təhlükəsizliyin möhkəmləndirilməsində maraqlı olduqlarını bildiriblər.

# Vətəndaşların qəbulu keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mayın 23-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Zaqatala rayonunda vətəndaşları qəbul edib.

Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, qəbulda Zaqatala və Balakəndə müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak ediblər. Onların müraciətləri, əsasən, dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, vahid aylıq müavinətin təyin edilməsi və məşğulluq məsələləri ilə bağlı olub. Vətəndaşlara məcburi köçkünlərin sosial problemlərinin həlli, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq imkanlarının genişləndirilməsi ilə bağlı həyata keçirilən dövlət tədbirləri haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsinə daim diqqət göstərir. Bu il aprelin 1-dən vahid aylıq müavinətin məbləğinin 50 faiz artırılması da məcburi köçkünlərə dövlət qayğısının növbəti təzahürüdür. Paytaxtda və bölgələrdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün yeni qəsəbələr salınır, onlara mənzillərin verilməsində ədalət və şəffaflıq təmin edilir.

Qeyd olunub ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların problemlərinə həssaslıqla yanaşan Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ən ağır vəziyyətdə və qəzalı şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı tapşırığının icrası davam etdirilir.

Qəbul zamanı məcburi köçkünlərin qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Digər məsələlərin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Qəbulda Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru Mahir Abbaszadə də iştirak edib.

Mayın 23-də dövlət komitəsinin sədr müavini Fuad Hüseynov Oğuz və Qəbələ rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünləri Oğuzda, sədr müavini Sabir Əhmədov isə Şəki şəhərində və Qax rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünləri Şəkidə qəbul ediblər.

# Bakıda I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi keçirilir

## Konqres Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunub



Mayın 22-də Bakıda Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunmuş I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.



Səhiyyə Nazirliyinin, Heydər Əliyev Fondunun, Talassemiya Mərkəzinin və Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən konqresin açılışında çıxış edən Talassemiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 ili tamam olur. Talassemiya Mərkəzi Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilib. 2009-cu ildən istifadəyə verilən mərkəzin bu xəstəliyə düçar olan şəxslərin müalicəsində mühüm rol oynadığı diqqətə çatdırılıb. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı dövlət proqramları və sərəncamlar əsasında ötən müddətdə Talassemiya Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində geniş işlər həyata keçirilib.

Mərkəzin icraçı direktoru bildirib ki, Prezident İlham Əliyevin 2018-ci ilin noyabrında "Talassemiya Mərkəzinin Yeni Nəsil Sekvenləşdirmə laboratoriyaları ilə təchiz olunmasına dair" imzaladığı sərəncam çərçivəsində artıq müasir avadanlıqlar alınıb və yaxın zamanda mərkəzdə bu cihazların quraşdırılması prosesi başa çatacaq. Bununla da Talassemiya Mərkəzi nəinki ölkəmizin, eləcə də regionun ən müasir genetik diaqnostika mərkəzi olacaq və genetik diaqnostika üçün respublikamızın hüdudlarından kənara müraciət etməyə ehtiyac qalmayacaq.

Profili və genetik diaqnostika imkanları üzrə regionda xüsusi yeri olan Talassemiya Mərkəzi elmi araşdırma və hematoloji xəstəliklərlə mübarizə sahəsində əlaqələri artırmaq məqsədilə bir sıra ölkələrlə iş birliyinə başlayıb. Beynəlxalq əlaqələr çərçivəsində xarici ölkələrin aparıcı mütəxəssislərinin Talassemiya Mərkəzinə səfərləri, birgə elmi toplantılar, elmi-praktik seminarlar, eləcə də yerli mütəxəssislərin müasir mərkəzlərdə uzunmüddətli kursları təşkil edilir.

Valeh Hüseynov görülən işlərin hematoloji xidmətin müxtəlif sahələrinin inkişafına ciddi təkan verdiyini diqqətə çatdırıb. Bildirib ki, qarşılıqlı səfərlər dünyanın müxtəlif ölkələrindən olan elm adamları ilə iş birliyi və təcrübə mübadiləsi baxımından müvəffəqiyyətli keçib, ölkəmizdə hematologiya sahəsinin inkişafı baxımından hematoloqları birləşdirəcək elmi cəmiyyətin qurulmasını və mütəmadi elmi konqreslərin təşkil olunmasını zəruri edib. Bu baxımdan Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin ölkəmizin hematologiya sahəsində çalışan mütəxəssislərini bir araya toplayacağına, I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresinin bu baxımdan əhəmiyyətli rol oynayacağına əminlik ifadə olunub.

V.Hüseynov Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2005-ci ildən həyata keçirilən "Talassemiyasız həyat naminə" layihəsi barədə məlumat verib. Qeyd olunub ki, layihənin məqsədi həm mövcud xəstələrin keyfiyyətli müalicə almasını təşkil etmək, həm də bu sahədə maarifləndirmə işini aparmaqdır.

Talassemiya Mərkəzinin Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə birgə bu il ərzində ölkənin müxtəlif regionlarında - Mingəçevir, Qax, Şirvan, Lənkəran, Quba, Bərdə və Gəncə şəhərlərində "Talassemiyasız həyat naminə" devizi ilə 7 elmi simpozium keçirdiyi bildirilib. Qeyd olunub ki, regional simpoziumlar çərçivəsində talassemiya daşıyıcılığının müəyyən olunması məqsədilə ödənişsiz tibbi müayinələr həyata keçirilib. Müraciət edənlərdən götürülmüş qan nümunələri Talassemiya Mərkəzində müayinədən keçirilib. Regionların ardından sonuncu - 8-ci simpozium isə I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi çərçivəsində mayın 25-də təşkil olunacaq.

Konqresin birinci günü Azərbaycanda ilk dəfə "Axın sitometriyası və sitogenetika" kursu keçirilib. Konqres çərçivəsində, həmçinin ölkəmizdə ilk dəfə olaraq "Tibb bacıları simpoziumu" təşkil olunacaq.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov ölkəmizdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinin ənənə halını aldığını bildirib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyə sahəsinə daim diqqət yetirdiyini deyən komitə sədri irsi qan xəstəlikləri ilə mübarizədə görülən işlərdən, qəbul olunan dövlət proqramlarından danışıb. O, nikahdan əvvəl icbari müayinənin irsi qan xəstəliklərinin azalmasında rol oynadığını diqqətə çatdırıb. Komitə sədri gələn il yanvarın 1-dən ölkə ərazisində tətbiq olunacaq icbari tibbi sığortanın bu xəstəliklərin müalicəsinə töhfə verəcəyini vurğulayıb. Ə.Əmiraslanov hematologiya sahəsində gen səviyyəsində elmi tədqiqatlar aparıldığını, genişmiqyaslı proqram hazırlandığını qeyd edib.

Beynəlxalq Talassemiya Federasiyasının sədr müavini Maykl Anqastiniotis, Türk Elmlər Akademiyası - TÜBA-nın təmsilçisi Taner Demirer, Türk Hematologiya Dərnəyinin sədri Hayri Özsan, Koç Universiteti Xəstəxanasının professoru Burhan Fərhanoğlu çıxış edərək Azərbaycanda qan xəstəlikləri ilə mübarizədə həyata keçirilən tədbirləri yüksək qiymətləndiriblər. Tədbirin klinik araşdırmalarda son nailiyyətləri izləmək baxımından böyük imkan yaratdığını bildirən mütəxəssislər konqresin işinə uğurlar arzulayıblar.

Konqresin elmi katibi Ramin Bayramlı çıxış edərək tədbir barədə məlumat verib. O, konqresdə 22 ölkədən 939 nəfərin iştirak etdiyini və 146 məruzə təqdim edildiyini bildirib.

Sonra panel iclaslar keçirilib və məruzələr dinlənilib.

Konqres mayın 25-dək bölmə iclasları ilə davam edəcək.

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 109-cu maddəsi baxımından həmin Məcəllənin 128-ci maddəsinin şərh edilməsinə dair Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul olunan qərardadlardan apellyasiya şikayəti vermək hüququ istisna edilir.

İnzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin tələblərinə ciddi riayət etməlidir.

Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə "prosessual qənaət" və "işlərə ağlabatan müddətdə baxılması" prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin sərgisi açılıb












Mayın 22-də Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin "Mümkün ölçülər" (Possible Dimensions) adlı sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, Moskva Müasir İncəsənət Muzeyi və Rusiya Rəssamlıq Akademiyası ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə müəllifin 85 illik yubileyinə həsr olunmuş sərgilər silsiləsinin davamıdır.

Sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxış edərək sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Heydər Əliyev Mərkəzində Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Seretelinin sərgisinin təşkili əlamətdar hadisələrdəndir. Görkəmli rəssamla Heydər Əliyev Fondunu və Heydər Əliyev Mərkəzini uzun illərdir dostluq və əməkdaşlıq əlaqələrinin bağladığını deyən Anar Ələkbərov bu günədək rəssamla bir neçə layihənin həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə görkəmli rəssamın "Dostluq" ordeninə layiq görüldüyünü deyən Anar Ələkbərov onu bu münasibətlə təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev deyib ki, dünya şöhrətli rəssam Zurab Seretelinin əsərlərindən ibarət sərginin Bakıda təqdim olunması paytaxtımızın mədəni həyatında mühüm hadisələrdən biridir. Qeyd edilib ki, Heydər Əliyev Fondu mütəmadi olaraq belə sərgilər təşkil etməklə ölkəmizin mədəniyyətinin təbliği istiqamətində də çoxsaylı layihələr həyata keçirir, uğurlu addımlar atır. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə görkəmli rəssamın əsərlərinin ilk dəfə ölkəmizdə sərgilənməsi münasibətilə onu təbrik edən nazir rəssama bundan sonrakı yaradıcılığında uğurlar arzulayıb.

Sonra Əbülfəs Qarayev Zurab Sereteliyə "Dostluq" ordenini təqdim edib.

Zurab Sereteli çıxış edərək sərginin təşkilində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkür edib. Prezident İlham Əliyev tərəfindən Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə "Dostluq" ordeni ilə təltif edilməsini sevinc hissi ilə qarşıladığını deyən rəssam indiyədək belə dəyərli mükafata sahib olmadığını da etiraf edib. O, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirib.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, xalq rəssamı Ömər Eldarov Zurab Seretelinin yaradıcılığı haqqında məlumat verib. Onun istər sovetlər dönəmində, istərsə də müasir dövrdə sənət fəaliyyətindən söz açan Ö.Eldarov rəssamın yaradıcılığının bənzərsizliyi haqqında danışıb, onu təbrik edib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Ekspozisiyada Moskva, Tbilisi və Londondan gətirilmiş 30-dan çox rəsm əsəri və heykəl nümayiş olunur.

Zurab Sereteli 1934-cü ildə Tbilisidə anadan olub. 1958-ci ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasını bitirib. 1960-cı illərin sonlarında geniş dairədə tanınmağa, dövlət sifarişləri almağa başlayıb. Monumentallıq onun müxtəlif ölkələrdə ictimai sifarişlər əsasında yaratdığı heykəllərdə də diqqəti çəkir. Seretelinin müəllifi olduğu möhtəşəm heykəllər London, Moskva, Nyu York, Paris, Roma, Tokio və digər şəhərlərdə ucaldılıb.

Seretelini dünya vətəndaşı adlandırmaq olar. Onun emalatxanaları doğulduğu Tbilisi şəhərində, Moskva, Paris və Nyu Yorkda yerləşir. Bu dörd şəhərin hər birində işləmək onun fərdi üslubunun formalaşmasına səbəb olub. Fransada Pablo Pikasso və Mark Şaqalla görüşü onun yaradıcılıq prosesinə baxışlarını köklü surətdə dəyişib. Ustadların rəssamlıq və qrafikadan keramika və heykəltəraşlığa asanlıqla keçmələri onu yeni əsərlər seriyası yaratmağa ilhamlandırıb. Parisdə Pikassonun emalatxanasını ziyarət etdikdən sonra çəkdiyi "İnessa" (1968) əsərində fransız rəssamın təsiri aydın nəzərə çarpır. Seretelinin "Mənim sevimli rəssamlarım" (2009) adlı məşhur heykəli Pablo Pikasso, Amedeo Modilyani, Mark Şaqal və Vinsent Van Qoqu təsvir edir. Bundan bir il əvvəl isə o, Niko Pirosmani və Anri Russonun heykəltəraşlıq obrazlarını yaratmışdı.

Zurab Seretelinin yaradıcılığına rus rəssamları da təsir göstərib. Vasili Kandinskinin abstrakt ekspressionizmi və ya Kazimir Maleviçin suprematizmi Seretelinin qırmızı və göy boyalarının zəngin palitrasına transformasiya edib.

Heydər Əliyev Mərkəzində nümayiş olunan sərgi avqustun 25-dək davam edəcək.

# Nizami Kino Mərkəzində "Mənim balaca şahzadəm" cizgi filminin təqdimatı olub





**Mayın 23-də Nizami Kino Mərkəzində "Azanfilm" studiyasının istehsalı olan "Mənim balaca şahzadəm" cizgi filminin təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Təqdimatı Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının birinci katibi, əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq gənc rəssam Məryəm Ələkbərlinin fransız yazıçısı Antuan de Sent-Ekzüperinin məşhur "Balaca şahzadə" əsərinə həsr edilmiş 30-a yaxın rəsm əsərinin olduğunu və dünyanın bir çox nüfuzlu sərgi salonlarında bu əsərlərin nümayiş etdirildiyini diqqətə çatdırıb. Bu əsərlərin təsiri altında həmin bu animasiya filmi ərsəyə gəlib. Animasiya növü yaradıcı insanın xəyallarını canlandırmağa geniş imkanlar açır.



Məryəm Ələkbərlinin zəngin rəssamlıq dünyasından söhbət açan xalq yazıçısı Elçin Əfəndiyev bildirib ki, animasiya filminin qəhrəmanı ilə Məryəmin mənəvi aləmi üst-üstə düşür. "Balaca şahzadə" dünya uşaq ədəbiyyatının klassik nümunəsidir. Bu filmin yaranmasının əsas səbəbi bu bağlılıq olub. Film üzərində çox istedadlı yaradıcı kollektiv çalışıb və ekran əsəri yeni texnologiyalar əsasında il yarım ərzində ərsəyə gəlib.

"Azanfilm" studiyasının direktoru Mansur Şəfiyev cizgi filmi barədə məlumat verib. Bildirib ki, cizgi filminin ideya müəllifi xalq yazıçısı Elçin Əfəndiyev, prodüseri Müşfiq Hətəmov, rejissoru Arif Məhərrəmovdur. Filmin çəkilişlərində Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında 2014-cü ildə istehsal olunan "Sirr" filminin materiallarından istifadə edilib.

Sonra animasiya filmi nümayiş olunub.

# Heydər Əliyev Fondu müqəddəs ramazan ayında rayonlarda iftar süfrələri təşkil edir



Heydər Əliyev Fondu mayın 22-də müqəddəs ramazan ayında Şamaxı rayonunda iftar süfrəsi açıb. Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən ramazan ayı ərzində bir sıra rayonlarda iftar süfrələri təşkil olunacaq.

AZƏRTAC xəbər verir ki, Şamaxı Cümə məscidində açılan iftar süfrəsində 300-ə yaxın rayon sakini iştirak edib.

Bildirilib ki, respublikamızda dövlət və din bir-birindən ayrı olsa da, Azərbaycan islam dininə, islam mədəniyyətinə mənsub ölkədir. Ruzi-bərəkət, həmrəylik, dostluq-qardaşlıq, sevgi və mərhəmət ayı hesab olunan ramazan, digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Bu gün Azərbaycan dünya ölkələri üçün tolerantlıq nümunəsidir. Ölkəmizdə birlik və sabitlik hökm sürür, dini məbədlər təmir və bərpa olunur, islami və milli mənəvi dəyərlər qorunur.

Həmçinin Ali Baş Komandanın rəhbərliyi ilə bütün torpaqlarımızın tezliklə işğaldan azad olunacağına, o torpaqlarda da dini ayinlərin icra ediləcəyinə və iftar süfrələrinin açılacağına əminlik ifadə olunub.

İftar süfrəsi ətrafında on bir ayın sultanı olan ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb. Ölkəmizə əmin-amanlıq və sülh arzulanıb, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhuna dualar oxunub.

Qeyd edək ki, Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa olunub. 1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilən mart qırğınları zamanı Şamaxıda da soyqırımı aktı həyata keçirilib. Ən böyük qırğın Cümə məscidində baş verib. Şamaxılıların Allah evi kimi məscidə sığındığını görən ermənilər burada yanğın törədərək, təqribən 1700 günahsız insanı qətlə yetiriblər. Sovet dövründə məlum səbəblərdən təyinatı üzrə istifadə edilməyən məscid məhv olmaq təhlükəsi ilə üzləşib. Azərbaycanın bütün sahələrdə inkişafına, o cümlədən milli-mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət və qayğı ilə yanaşan ulu öndər Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə 1980-ci ildə bu tarixi abidə təmir edilib.

Şamaxı Cümə məscidi daha sonra Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir olunub. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidin açılış mərasimində iştirak edib.

# Mayın 28-i ABŞ-ın daha bir ştatında Azərbaycan Günü elan edilib

ABŞ-ın Cənubi Karolina ştatının qubernatoru Henri MakMaster Azərbaycan Demokratik Respublikasının 101-ci ildönümü və Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi ilə əlaqədar rəsmi bəyannamə imzalayıb.

AZƏRTAC xəbər verir ki, bəyannamədə 1918-ci il may 28-də Müsəlman Şərqində ilk dünyəvi parlamentli respublika olan Azərbaycan Demokratik Respublikasının qurulması və dünyanın digər demokratik dövlətləri, o cümlədən ABŞ tərəfindən tanınması qeyd olunur. Sənəddə bildirilir ki, Azərbaycan Demokratik Respublikası müstəqil olduğu qısa müddət ərzində irqi, cinsi, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər seçki hüququnu tanımaqla yanaşı, müsəlman dünyasında ilk dəfə qadınlara seçki hüququnun verilməsini təmin edib.

Eyni zamanda, sənəddə Azərbaycan Demokratik Respublikasının 1920-ci ildə öz müstəqilliyi uğrunda mübarizə aparmasına rəğmən onun Sovetlər Birliyinin tərkibinə daxil edildiyi və 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa etməyə nail olduğu vurğulanır.

Qeyd edilir ki, Azərbaycan son 28 il ərzində öz suverenlik və müstəqilliyini möhkəmləndirib və hazırda vacib əhəmiyyətli regionlardan olan Xəzər regionunda ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır.

Bəyannamədə 2019-cu ildə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illiyi və Azərbaycan Demokratik Respublikasının 101 illiyinin qeyd olunması ilə əlaqədar mayın 28-nin Cənubi Karolinada və dünyanın digər yerlərində yaşayan azərbaycanlılar tərəfindən Milli Gün olaraq qeyd ediləcəyi deyilir.

Qubernator MakMaster imzaladığı bəyannamədə 2019-cu il 28 may tarixini Cənubi Karolina ştatında Azərbaycan Günü elan edir, Azərbaycan Respublikasına ən xoş arzularını çatdırır, ABŞ-da və dünyada yaşayan azərbaycanlıları bu bayramı qeyd etməyə çağırır.

# Səməd SEYİDOV: "Ermənistan apardığı mənfur siyasəti artıq gizlədə bilmir"

Parisdə Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Büro iclası keçirilir. AŞ PA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov iclasda iştirak edir. AZƏRTAC xəbər verir ki, AŞ PA-nın Büro iclasında diqqət çəkən məqam qurumun Baş katibinin Ermənistanda baş verən hadisələrə reaksiyası olub.

Artıq Ermənistan rejimi mənfur siyasətini gizlədə bilmir. Demokratiya ilə bağlı yalanların üstü açılıb. Bunu ölkədə son günlər baş verən hadisələr də göstərir.

Büro iclasında baş verənlərlə bağlı Səməd Seyidov bildirib ki, Avropa təşkilatları, eləcə də AŞ PA Ermənistanın apardığı mənfur siyasəti anlamağa başlayıblar. Parisdə keçirilən Büro iclasında bu, özünü aydın göstərdi. Ermənistanın baş nazirinin birbaşa müdaxiləsi ilə ölkədə bütün məhkəmələrin blokadaya alınması narazılıqlar yaradıb. AŞ PA-nın Baş katibi Ermənistanda baş verən son hadisələrlə bağlı mənfi münasibətini bildirərək, bu ölkəyə xüsusi ekspertlərin göndərilməsi qərarına gəlib.

Səməd Seyidov qeyd edib ki, Ermənistanın daxilində gedən bəzi proseslərin bir sıra qüvvələr tərəfindən "demokratiyanın ən yüksək səviyyəsi" kimi təqdim edilməsi cəfəngiyatdır. Əminəm ki, belə mənfi halların sayı artacaq, çünki Ermənistanda mövcud olan siyasi böhran istər-istəməz bundan da böyük problemlərə şərait yaradacaq.

# Dünyanın aparıcı neft-qaz və energetika mütəxəssisləri yenə də Azərbaycanda görüşəcəklər

## Mayın 29-da Bakıda ənənəvi Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi açılacaq

Əvvəli 1-ci səh.

Burada gələcək əməkdaşlığa dair memorandumlar, saziş və müqavilələr imzalanır. Prezident İlham Əliyevin hər il sərginin açılışında iştirak etməsi bu tədbirin yüksək statusunu bir daha təsdiqləyir.

26-cı Beynəlxaq Xəzər Neft və Qaz Sərgisi ərəfəsində keçirilən mətbuat konfransında Iteca Caspian şirkətinin baş direktoru Fərid Məmmədov bildirdi ki, respublikanın Energetika Nazirliyi və Dövlət Neft Şirkəti tədbirə böyük dəstək göstərirlər. Baş tərəfdaş kimi SOCAR çıxış edir. Qızıl sponsor BP, gümüş sponsor isə "Türkiye Petrolleri"dir. Bu il sərgidə 34 ölkədən 290 şirkət iştirak edəcək. Bunların arasında ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə və bir sıra MDB ölkələrinin aparıcı şirkətləri var. İştirakçıların 24 faizi sərgidə öz debütünü edəcək. Çin, Almaniya, Belarus, Rusiya və digər ölkələrdən olan bu şirkətlər tədbirə geniş məzmunlu ekspozisiyalarla gələcəklər.

Xəzər Neft və Qaz Sərgisinin meneceri Ülkər Qasımova əlavə etdi ki, iştirakçı şirkətlər tərəfindən neftin və qazın hasilatı, daşınması, karbohidrogenlərin saxlama sistemlərinin təmin edilməsi üzrə avadanlıqlar, innovativ texnologiyalar təqdim olunacaq. Eləcə də platforma və üzən qazma qurğuları, boruların çəkilməsi, kəmərlərin təhlükəsizlik sistemləri, servis xidmətləri təqdim ediləcək.

Hər il olduğu kimi, sərgi ilə yanaşı, eyni adlı konfrans da keçiriləcək. Konfransın işi iki gün (mayın 30-u və 31-də) davam edəcək. Xəzər Neft və Qaz Konfransının meneceri Aynurə Nəzərli bu barədə geniş məlumat verərək bildirdi ki, tədbirə 30 ölkədən 500-ə yaxın nümayəndə gələcək. Konfransın plenar sessiyasının mövzusu "Sinerji - qlobal inkişafa aparan yol: enerji təhlükəsizliyinə və dayanıqlığa doğru" adlanacaq. Tədbirin auditoriyasında sənayenin ən aktual mövzuları - enerji təhlükəsizliyi, yeni ixrac və investisiya imkanları, sektorun rəqəmsallaşdırılması, ekologiya, qənaət və digər mövzular ətrafında müzakirələr aparılacaq. Ümumiyyətlə, konfransda 40-dan çox məruzə dinləniləcək.

Builki konfrans öz "dinamik"liyi ilə fərqlənəcək. Belə ki, tədbir çərçivəsində nümayəndə heyətlərinə məruzəçilərlə "onlayn" rejimində ünsiyyət yaratmaq imkanı veriləcək. Konfransın məkanı "Bilgah Beach Hotel" olacaq.

Son illərdə neft-qaz sərgisi ilə eyni vaxtda Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji Sərgisi - "Caspian Power"də keçirilir. Bu il 9-cu dəfə baş tutacaq həmin sərgidə Azərbaycan, Belarus, Rusiya, Türkiyə və digər ölkələrin energetika sahəsinin aparıcı texnologiya təchizatçıları yer alacaq. Sahənin tanınmış müəssisələri istehsal etdikləri transformatorları, kabelləri, elektrik avadanlıqlarını, enerjiyə qənaət üzrə ən son məhsul və texnologiyalarını göstərəcəklər. Mütəxəssislər isə elektroenergetikanın inkişaf strategiyaları haqqında məlumat almaq, perspektiv müqavilələr imzalamaq imkanı qazanacaqlar.

Sərginin keçirildiyi günlərdə Bakı Ekspo Mərkəzində maraqlı görüşlər olacaq, işgüzar proqramlar təqdim ediləcək. Tədbirlər üzrə menecer Svetlana Fuks sənaye sahəsində çalışan gənc mütəxəssislər, tələbələr üçün hazırlanmış proqramlar barədə məlumat verdi. Sərginin sonu 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə təsadüf etdiyindən balacalar da unudulmayıb. Belə ki, həmin gün "Yarat" müasir incəsənət mərkəzi ilə birlikdə uşaqlar üçün ustad dərslərinin keçirilməsi nəzərdə tutulur. Onlar tədbirdə ölkəmizin həyatında neftin rolu, neftdən hansı məhsullar hazırlandığı barədə geniş məlumat alacaqlar.

Balacaların neft-qaz sərgisinin işinə qatılması da bu tədbirin 25 illik tarixində bir ilkdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# İlk dəfə

## UEFA İcraiyyə Komitəsi Bakıda toplaşır

Əvvəli 1-ci səh.

UEFA mayın 29-da Bakıda keçiriləcək İcraiyyə Komitəsi iclasının gündəliyini açıqlayıb. Paytaxtımızda tarixdə ilk dəfə olaraq keçiriləcək iclasda 2021-ci ildə UEFA Qadınlararası Çempionlar Liqasının ev sahibinin müəyyənləşdirilməsi məsələsi müzakirə ediləcək. Müxtəlif yarışların və texniki qaydaların təsdiqi də gündəliyin əsas müzakirə mövzularından biridir. Tədbirin gündəliyində futzal üzrə UEFA Avropa çempionatı 2020-2022-ci illər, 2019-2020-ci illər UEFA Avropa U-17 və U-19 çempionatları, 2019-2020-ci illər UEFA Avropa qadınlararası U-17 və U-19 çempionatları, UEFA İntizam qaydaları (2019-cu il buraxılışı), UEFA Təhlükəsizlik qaydaları (2019-cu il buraxılışı) və UEFA Klubların maliyyə nəzarəti orqanının prosedur qaydaları (2019-cu il buraxılışı) məsələləri də yer alıb. Eyni zamanda, turnirlərin əsasnamələri - oyun qaydalarına adaptasiya, UEFA Avropa gənclər çempionatlarının formatı, Reynhart Qrindelin UEFA-nın vitse-prezidenti və FIFA İcraiyyə Komitəsi üzvlüyündən azad olunması və UEFA Grassroots mükafatı - 2019-da təsdiqini tapacaq.

Xatırladaq ki, UEFA-nın İcraiyyə Komitəsinin Bakıdan əvvəlki iclası və konqresi bu ilin fevral ayında İtaliyanın paytaxtı Romada keçirilmişdi. Avropa futbol təşkilatına 2016-cı ildən rəhbərlik edən sloveniyalı Aleksander Çeferinin UEFA-nın yeni prezidenti kimi seçildiyi konqresdə klub turnirlərinin və yığma komandaların 2019-2020-ci illər üçün yarışlarının reqlamentləri də təsdiq edilmişdi. Onların arasında Çempionlar Liqası, Avropa Liqası və UEFA superkuboku da var.

Gənclər arasında 2019-2021-ci illər Avropa çempionatının final turnirinin formatının da təsdiq olunduğu iclasda UEFA və Avropa Klubları Assosiasiyası arasında qarşılıqlı anlaşmaya dair Memorandum da imzalanmışdı.

Tədbirdə eyni zamanda UEFA İcraiyyə Komitəsinin yeni üzvləri müəyyənləşmişdi. Ukrayna Futbol Federasiyasının prezidenti Andrey Pavelko, Xorvatiya Futbol İttifaqının prezidenti Davor Şuker, Macarıstan Futbol Federasiyasının rəhbəri Şandor Çanyi, Albaniya Futbol Assosiasiyasının prezidenti Armand Duka, Danimarka Futbol Federasiyanın rəhbəri Yesper Meller-Kristensen, İspaniya Futbol Federasiyasının prezidenti Luis Rubiales və Portuqaliya Futbol Federasiyasının prezidenti Fernandu Qomeş qurumun İcraiyyə Komitəsinə daxil olmuşdular. Üzvlüyə qadın namizəd kimi fransalı Arduen Florans seçilmişdi.

Göründüyü kimi, Azərbaycan da UEFA-nın etimadını tamamilə doğruldub. Final qarşılaşmasını tələb olunan səviyyədə keçirmək üçün yerli təşkilat komitəsi nəzərdə tutulan bütün işləri vaxtlı-vaxtında icra edib, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib.

Bununla da Azərbaycan növbəti dəfə sübut edir ki, mötəbər turnirləri, o cümlədən gələn il keçiriləcək Avropa çempionatını da yüksək səviyyədə təşkil etmək qabiliyyətinə malikdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının Dövlət Borcu üzrə İşçi Qrupunun toplantısı işə başlayıb

Mayın 23-də Bakıda Hesablama Palatasının təşkilatçılığı ilə Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) Dövlət Borcu üzrə İşçi Qrupunun (DBİQ) toplantısı işə başlayıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov toplantının məqsədi, islahatlar dövründə dövlət borcunun idarə edilməsi və auditi mövzusunun hər bir ölkə üçün aktuallığından danışıb, ölkələr arasında dövlət auditi sahəsində əməkdaşlığın və təcrübə mübadiləsinin zəruriliyini vurğulayıb.

Qeyd edib ki, Azərbaycan Hesablama Palatası da daxil olmaqla 28 ölkənin heyətinin və bu heyətin birləşdirdiyi 55 nümayəndənin iştirakı məhz dövlət borcunun auditinin keyfiyyətinin yüksəldilməsi məsələsinin diqqətdə olduğunu göstərir. Tədbirin INTOSAI çətiri altında keçirilməsi ikitərəfli və çoxtərəfli əməkdaşlığın güclənməsinə təkan verir.

Filippin Audit Komissiyasının və INTOSAI-ın Dövlət Borcu üzrə İşçi Qrupunun sədri Maykl Aquinaldo çıxışında çoxtərəfli və ikitərəfli əməkdaşlığın ali audit qurumlarının fəaliyyətində rolundan danışıb, İşçi Qrupunun fəaliyyəti haqqında hesabat təqdim edib.

Sonra INTOSAI Dövlət Borcu üzrə İşçi Qrupunun yeni üzv ölkələri və onları təmsil edən nümayəndələr təqdim olundu.

Dünya Bankının Borcun İdarə edilməsi Ofisinin (DMF) meneceri və baş təhlilçisi Li Hakim, Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) nümayəndəsi Stefani Blankenburq, ADA Universitetinin müəllimi Elçin Rəşidov mövzu ilə bağlı təqdimatla çıxış etdilər.

Qeyd edək ki, 25 il ərzində INTOSAI Bilik Mübadiləsi Komitəsinin nəzdində fəaliyyət göstərən və 34 üzv Ali Audit Qurumundan ibarət olan İşçi Qrupuna sədrliyi 2017-ci ildə Filippin Audit Komissiyası öz üzərinə götürüb.

Mayın 25-dək davam edəcək toplantıda Dövlət Borcu üzrə İşçi Qrupunun Katibliyinin hesabatlarının, 2020-2022-ci illər üçün İşçi Qrupunun iş planının, 2018-ci ilin oktyabr ayında keçirilmiş sorğu nəticələrinin xülasəsinin, Dövlət Borcu Auditinin məlumat bazası üzrə ekspertlər şəbəkəsinin çıxışları, iş planındakı tədbirlər üzrə tapşırıq qruplarının tərkibinin müəyyən edilməsi, 2017-2019-cu illər üzrə iş planı və veb-səhifəsinin müzakirəsinin dinlənilməsi nəzərdə tutulur.

***"Azərbaycan"***

# Azərbaycan öz inkişafı ilə antiazərbaycançı dairələrin planlarını alt-üst edir

Əvvəli 1-ci səh.

Bu siyasətin nəticəsidir ki, hazırda Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, qlobal layihələrin reallaşdırılmasına, dünyada təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir. Respublikamızın Qərb və Şərq, eyni zamanda, Şimal və Cənub arasında dəhliz rolunu oynaması əhəmiyyətli ölkə kimi onun nüfuzunu ortaya qoymuş olur.

Lakin sürətlə inkişaf edən, müstəqil siyasət yeridən Azərbaycanın qazandığı uğurları müəyyən xarici dairələr həyəcansız qarşılaya bilmir, bundan narahatlıq keçirdiklərini hər addımda büruzə verirlər. Bəzi beynəlxalq təşkilatların və insan hüquqları üzrə formalaşmış qeyri-hökumət təşkilatlarının Azərbaycanla bağlı qərəzli hesabatlarının son illərdə çoxalması bunu təsdiq edir. Xüsusən erməni lobbisi və onun maliyyəsilə hərəkət edən dairələr ölkəmizdəki harmonik inkişafa zərbə vurmağa, uğurlarımıza kölgə salmağa cəhd göstərirlər. Onlar illərdir ki, Azərbaycandakı radikal müxalifətin və sosial şəbəkələrin, "hüquq müdafiəçiləri"nin də daxil olduğu "beşinci kolon" vasitəsilə məqsədlərinə nail olmağa çalışırlar.

Antiazərbaycançı şəbəkə yenidən fəallaşıb. Çünki xüsusən son bir ildə respublikamız yeni inkişaf göstəricilərinə imza atıb, mühüm qlobal layihələri tamamlayıb, bölgənin lideri kimi iqtisadi imkanlarını və proseslərə təsiretmə rıçaqlarını artırıb. Cənubi Qafqazın işğalçı dövləti Ermənistanda isə vəziyyət fərqlidir. Ermənistan davamlı olaraq siyasi böhran içindədir. Mafiyozlaşmış və korrupsiyalaşmış erməni hakimiyyəti vətəndaşların ümidlərini heç cür doğrulda bilmir. Bir neçə gün əvvəl keçmiş prezident R.Koçaryanın həbsdən buraxılması ölkədəki gərginliyi bir qədər də artırıb. İnkişafdan əsər-əlamət olmayan, tənəzzül və səfalət hökm sürən, iqtisadiyyatı dağıdılmış, sabitliyi pozulmuş Ermənistanın bu gedişlə hələ uzun müddət özünə gələ bilməyəcəyi aydındır.

Təbii ki, bu iki ölkədə baş verənlər - Azərbaycanın bölgənin və postsovet məkanının sürətlə inkişaf edən dövləti kimi uğurlarını artırması, Ermənistanın isə böhran və problemlər içində itib-batması Qərbin bir sıra siyasi dairələrinin, o cümlədən erməni lobbisinin əlində alətə çevrilən mərkəzlərin, siyasətçilərin də diqqət mərkəzindədir. Hər biri Cənubi Qafqazın lideri olan Azərbaycanın uğurlarını da görür, bütün sahələrdə uğradığı tənəzzüldən qurtula bilməyən Ermənistanın fəlakətini də! Ona görə son vaxtlar yenidən fəallaşıblar. Təsadüfi deyil ki, radikal müxalifət xaricdən aldığı sifarişlərə əsasən qondarma iddialar irəli sürərək respublikamızın uğurlarını gözdən salmağa, ölkədə sabitliyi pozmağa, bu yolla hakimiyyətə təzyiq göstərərək özünün və xarici havadarlarının siyasi və iqtisadi iddialarını reallaşdırmağa yeni cəhdlər edir. Birbaşa olaraq erməni lobbisinin təsiri altında olan xarici qrant təşkilatlarının maliyyəsilə Azərbaycanın imicinə zərbə vurmağa hesablanmış addımlar atmağa çalışır. Müxtəlif yollarla xarici ölkələrə üz tutub çirkin kampaniyalara cəlb olunan antimilli ünsürlərin əməlləri bu məqsədə xidmət edir. Lakin onların hərəkətləri öz dövlətinə və xalqına qarşı xəyanətdən başqa bir şey deyil.

Mayın 29-da Bakıda keçiriləcək UEFA Avropa Liqasının finalı ilə əlaqədar təşkil olunan qarayaxma kampaniyası bunu bir daha sübut edir. Təcrübə göstərir ki, Azərbaycan beynəlxalq tədbirlər ərəfəsində olanda antiazərbaycançı şəbəkənin məlum planı işə salınır, ölkəmizə qarşı qara piyar kampaniyası həyata keçirilir. Bu baxımdan xeyli müddət əvvəldən UEFA Avropa Liqasının finalı ərəfəsində Azərbaycanla bağlı qərəzli, ölkəmizin uğurlarına kölgə salmaq niyyəti güdən informasiyaların dövriyyəyə buraxılacağı gözlənilən idi. Çünki həm "Eurovision" musiqi yarışması, həm I Avropa Oyunları, həm IV İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq tədbirlər ərəfəsində antiazərbaycançı şəbəkə ölkəmizə qarşı oxşar qarayaxma planlarını işə salıb.

Avropa Liqasının finalının keçirilməsini pisləyən "Amnesty International" təşkilatından, əslində, başqa bir şey gözləmək də olmazdı. Antiazərbaycan platformasında yer alan, ölkəmizə qarşı aparılan qərəzli kampaniyanın fəal iştirakçısı olan bu təşkilat hər zaman bəzi QHT-lərin və dəllallıqla məşğul olan "hüquq müdafiəçilərinin" subyektiv mülahizələrinə, yalan məlumatlarına istinad edərək dövlətimizə qarşı inkarçı və qərəzli mövqedə dayanıb. Ayrı-ayrı maraqlı dairələrin əlində müstəqil siyasət yürüdən ölkələrə qarşı təzyiq alətinə çevrildiyi üçün bu təşkilat artıq korrupsiyada adı hallanan, sifariş yerinə yetirən qurum imici qazanıb. Ona görə belə çirkli reputasiyaya malik bir təşkilatın kimisə ittiham etməyə, ədalət, şəffaflıq, demokratiyadan danışmağa haqqı yoxdur.

Xatırladaq ki, "Amnesty International" əvvəllər də beynəlxalq tədbirlər vaxtı, məsələn, I Avropa Oyunları ərəfəsində ölkəmizə qarşı böhtan və qarayaxma kampaniyasına başlamışdı. Lakin güclü Azərbaycan dövləti qarşısında aciz qaldı.

UEFA Avropa Liqasının finalının Bakıda keçirilməsindən qaynaqlanan yeni kampaniya sübut edir ki, xaricdəki maraqlı dairələr Azərbaycanın dünyada nüfuzunun artmasından, onun yüksək səviyyəli iqtisadi, siyasi, humanitar mərkəzə çevrilməsindən narahatdırlar. Ermənistan Xarici İşlər Nazirliyinin "Arsenal" futbol klubunun erməni əsilli oyunçusunun Bakıya səfər etməməsi ilə bağlı açıqlaması antiazərbaycançı şəbəkənin bu ərəfədə ölkəmizə qarşı fəallaşmasının göstəricisidir.

Siyasi dairələrin idman məsələlərinə qarışması qəbulolunmazdır. İndiki halda bir daha təsdiq olunur ki, Ermənistan idmanı siyasət alətinə çevirməyə cəhd etməklə həm də sülh danışıqlarında qeyri-konstruktivliyini ortaya qoyur.

Xatırladaq ki, Azərbaycan 29 may tarixində UEFA-nın Avropa Liqasının Bakıda keçiriləcək final oyununda iştirak edəcək bütün oyunçuların, o cümlədən "Arsenal" futbol klubunun oyunçusu H.Mxitaryanın, eləcə də bütün azarkeşlərin təhlükəsizliyinin tam təmin olunacağına təminat verib. Xatırladaq ki, erməni əsilli idmançılar bundan əvvəl də Azərbaycanda keçirilən yarışlarda iştirak ediblər və onların təhlükəsizliyi ilə bağlı hər hansı problem olmayıb. H.Mxitaryanın özü isə xeyli vaxtdır İngiltərə premyer-liqasında "Arsenal"ın start heyətində yer almır. Ona görə bir çox hallarda əsas oyunlardan kənarda qalmalı olur. Əsasən aparıcı futbolçular müəyyən səbəblərdən oyunu davam etdirə bilmədikdə meydana çıxır. Bu baxımdan onun Bakıya gəlməməsi "Arsenal" üçün, ümumiyyətlə, itki sayılmır. Ona görə bu gün erməni futbolçusunun Bakıya səfəri ilə bağlı yaradılan ajiotaj tamamilə süni və yersizdir. Antiazərbaycançı dairələrin planlarının tərkib hissəsi olan bu qalmaqal da artıq iflasa uğrayıb.

İndiyədək antiazərbaycançı şəbəkənin respublikamıza qarşı dəfələrlə qara piar həyata keçirmək istəməsinin şahidi olmuşuq. Lakin hər dəfə məğlub olublar. Çünki Azərbaycan öz inkişafı, müstəqil dövlət kimi söz və nüfuz sahibinə çevrilməsi ilə antiazərbaycançı dairələrin bütün planlarını alt-üst edir, onlara sarsıdıcı zərbələr endirir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Daha 5 rayonda torpaqların elektron kadastr uçotu işləri tam yekunlaşıb

Ölkənin torpaq balansı dəqiqləşir, regionların hüdudları daxilində torpaqların sərhədləri müəyyənləşir, o cümlədən torpaqlardan təyinatı üzrə istifadənin vəziyyəti ilə bağlı məlumatlar daha rahat və dəqiq əldə edilir. Nəticədə vətəndaşlara məxsus torpaqların sahəsi bilinir, torpaq istifadəçiliyi ilə bağlı düzgün qərarlar qəbul edilir. Bütün bunlar Əmlak Məsələləri Dövlət Komitəsinin apardığı torpaqların elektron kadastr uçotu nəticəsində reallaşır.

Cari ilin birinci rübündə daha 5 rayonda torpaqların elektron kadastr uçotuna alınması işləri tamamlanıb. Ümumilikdə isə 35 rayonda uçot işləri başa çatıb. Onların 26-da layihənin nəticələrinin həmin rayonların ictimaiyyəti üçün təqdimatları keçirilib. Həmçinin 15 rayonun məlumatları sistemə tam daxil edilib və praktiki istifadə üçün aidiyyəti orqanların istifadəsinə verilib.

Torpaqların elektron kadastr uçotu işləri zamanı kəmiyyət göstəriciləri ilə yanaşı, keyfiyyət də müəyyənləşir. 2019-ci ilin ilk rübündə 40 min hektardan çox ərazidə irimiqyaslı çöl torpaq tədqiqatı işləri aparılıb. Ümumilikdə isə 3 milyon hektara yaxın ərazidə çöl torpaq tədqiqatı işləri aparılıb və keyfiyyət göstəriciləri müəyyən edilib.

Torpaqların keyfiyyət göstəriciləri laboratoriya vasitəsilə müəyyənləşir. Cari ildə 2,5 milyon hektar ərazinin torpaq nümunələri laboratoriya şəraitində analiz olunub.

Bunlarla yanaşı, indiyədək 455 bələdiyyə xəritəsi hazırlanaraq təsdiq üçün həmin rayonların icra hakimiyyətlərinə təqdim olunub, 308 bələdiyyənin xəritəsi müvafiq rayon icra hakimiyyətləri və bələdiyyələrlə razılaşdırılaraq, Prezident Administrasiyasına təhvil verilib.

Ümumiyyətlə, torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemində 600 min hektardan çox ərazinin torpaq və şorlaşma xəritələri tərtib edilib.

***"Azərbaycan"***






Gənclik






● İnsan kapitalı

**Gənclər ölkəmizin aparıcı qüvvəsi və gələcəyə ümididir. Respublikada gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdu. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bunun nəticəsidir ki, indi gənclərimiz respublika daxilində və xaricində müxtəlif məsul vəzifələrdə təmsil olunur və uğurlu fəaliyyət göstərirlər.**

# İnkişafa gedən yolda hər zaman ölkə rəhbərinin yanındayıq




Ölkəmizdə dünya əhəmiyyətli müxtəlif tədbirlər keçirilir. Həmin tədbirlərdə iştirak gənclərin özlərini realizə etmələri, qiymətli təcrübə qazanmaları və gələcək məşğulluqlarının təmin edilməsi baxımından çox əhəmiyyətlidir.

Ölkə xaricində keçirilən tədbirlərdə də təmsilçilik işlərinin əksəriyyəti gənclərin üzərinə düşür. Bu baxımdan, Azərbaycan digər xalqların nümayəndələri arasında gənclər ölkəsi kimi yaddaşlarda qalır və müsbət təəssüratlar yaradır.

Gənclərimiz Aprel döyüşlərində də özlərini layiqincə vətənpərvər göstərdilər. Düşmənə sübut etdilər ki, Azərbaycan gəncləri Ali Baş Komandanın əmri ilə düşmənə sarsıdıcı zərbə endirməyə hazırdırlar.

Bir gənc alim kimi mən də öz fəaliyyətimi vətənimizə layiq qurmağa çalışıram. Ölkəmizi dünya reytinq cədvəllərində flaqman universitet kimi təmsil edən Bakı Dövlət Universitetində (BDU) bakalavr, magistratura və fəlsəfə doktorluğu üzrə doktorantura pillələrində təhsil almışam və bütün mərhələləri fərqlənmə diplomu ilə bitirmişəm. Təhsil aldığım müddətdə apardığım tədqiqatlar, respublikamızda və ölkəmizdən kənarda qazandığım təcrübələr elmə olan marağımın artmasına səbəb olmuşdur.

Apardığım tədqiqatlar kimyanın çox perspektivli və xeyli çətin sayılan sahələrindən olan polimerlər, nanokimya və nanomateriallar, karbon nanostrukturları istiqamətindədir. Sintez etdiyim yeni nanostrukturlar günəş batareyaları, yarımkeçiricilər, konstruksiya materiallarının möhkəmləndiriciləri, ekoloji və s. istiqamətlərdə çox geniş tətbiq imkanlarına malikdir.

2016-cı ildə dissertasiya işimi uğurla müdafiə edərək 2017-ci ildə kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışam və hazırda işlərimi elmlər doktoru istiqamətində davam etdirirəm.

2011-ci ildən BDU-nun əməkdaşıyam. Hazırda Kimya fakültəsinin Yüksəkmolekullu birləşmələr kimyası kafedrasında müəllim və elmi işçi vəzifələrində fəaliyyət göstərirəm. Kafedrada ingilis və Azərbaycan bölmələrində, bakalavr və magistratura səviyyəsində, müxtəlif fənlər üzrə mühazirə, məşğələ və laboratoriya dərsləri aparıram. İngilis dilində, müxtəlif fənlərdən tədris proqramlarının müəllifiyəm. Təhsil Nazirliyinin layihəsi olan SABAH qruplarında da ingilis və Azərbaycan bölmələrində tədrislə məşğulam. Hazırda magistrant və bakalavr tələbələrinin dissertasiya işlərinə elmi rəhbərlik edirəm.

Dəfələrlə Macarıstan, Avstriya, Çexiya, Türkiyə, Gürcüstan, İtaliya, Rusiya, İspaniya və başqa ölkələrin müxtəlif şəhərlərində ezamiyyətlərdə olmuşam, ölkəmizi təmsil etmişəm. Bu ezamiyyətlərə təcrübəkeçmələr, tədqiqat səfərləri, elmi konfrans və simpoziumlarda məruzələrlə iştirak aiddir. Avropanın nüfuzlu universitetlərindən sayılan Szeged Universitetində (Macarıstan), Bilkənt Universitetində, Orta Şərq Texniki Universitetində (Türkiyə) və bu qəbildən olan müxtəlif nüfuzlu universitetlərdə tədris prosesi ilə tanış olmuş, elmi tədqiqat işləri aparmışam. Əldə etdiyim təcrübələri tədris prosesində və tədqiqatlarımda tətbiq edirəm.

Amerika, Kanada, İngiltərə, Almaniya, İtaliya, İspaniya, Fransa, Macarıstan, Finlandiya, Avstriya, Çexiya, Ukrayna, Polşa, Türkiyə, Rusiya, Gürcüstan, İran, Hindistan, Pakistan, Qazaxıstan, Özbəkistan, Çin, Koreya, Misir və dünyanın digər ölkələrində fəaliyyət göstərən alimlərlə elmi əməkdaşlıq edirəm.

Həyata keçirdiyim elmi tədqiqatlarla bağlı 50-dən çox elmi əsərim çap olunub. Bunlara xarici ölkələrin və Azərbaycanın nüfuzlu jurnallarında dərc olunmuş məqalələr, yerli və beynəlxalq elmi konfrans və simpoziumların tezis və konfrans məqalələri daxildir. Çap olunmuş elmi məqalələrimdən bir qismi Thomson Reuters (Clarivate Analytics)-Web of Science bazasının SCI və SCI-E seriyalarına aid nüfuzlu, yüksək impakt faktorlu elmi jurnallarda nəşr olunmuşdur. Aldığım nəticələrin əhəmiyyəti sayəsində elmi məqalələrim Amerikada, İngiltərədə, Hollandiyada, Hindistanda və digər ölkələrdə nəşr edilmişdir. Bu məqalələrə dünyanın müxtəlif qabaqcıl elmi potensiala malik ölkələrində tədqiqatlar aparan alimlər tərəfindən istinadlar gəlməkdədir.

Tədqiqat apardığım müddətdə müxtəlif qrant layihələrin qalibi olmuşam və bu layihələri müvəffəqiyyətlə icra etmişəm. Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun "Mobillik Qrantı" və kollektiv qrantının, 2 dəfə BDU-nun 50+50 qrantının, 2 dəfə UNİDO-nun (Birləşmiş Millətlər Sənayenin İnkişafı Təşkilatı) fərdi qrantlarının qalibi olmuşam. Avropa Komissiyası 7-ci çərçivə NAPEP qrant layihəsində fəaliyyət göstərmişəm.

Dəfələrlə gənclərlə bağlı müxtəlif ictimai işlərdə, tələbə və gənclərin elmə marağının artırılması ilə əlaqəli layihələrdə iştirak etmişəm.

Qeyd etdiyim kimi, apardığım elmi tədqiqatları həm Bakı Dövlət Universitetində, həm də paralel olaraq Avropanın nüfuzlu universitetlərində həyata keçirmişəm. Elmi tədqiqatlardan əldə etdiyim nəticələr Avropanın nüfuzlu alimlərində ölkəmizin elmi potensialı haqqında xoş təəssüratlar yarada bilmişdir. Bu səbəbdən dəfələrlə Avropa universitetlərindən, Türkiyənin nüfuzlu universitetlərindən, hətta Kanadada yerləşən universitetdən iş təklifi almışam. Lakin millətimə, ailəmə bağlılığım daimi olaraq həmin ölkələrə köçüb yaşamağıma mane olur. Amma qısamüddətli elmi ezamiyyətlərlə ölkə xaricindən qiymətli təcrübələr qazanıb vətənə gətirməklə daima məşğulam və bunun daha məqsədəuyğun olduğunu düşünürəm.

Ölkəmizdə gənclərin fəaliyyətini stimullaşdıran müxtəlif aksiyalar keçirilir. Bunlardan biri dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə verilən Gənclər üçün Prezident mükafatıdır. Hər il gənclər günündə öz sahəsində uğurlar qazanmış 6 nəfər gəncə bu mükafat verilir. Təhsildə və elmdə əldə etdiyim nailiyyətlərə görə, Prezidentin 29 yanvar 2016-cı il tarixli sərəncamı ilə mən də Gənclər üçün Prezident mükafatı ilə təltif olunmuşam və bu mükafat məndə gələcək uğurlu fəaliyyətə stimul yaradıb.

Gənc olduğum halda bu gün təhsil aldığım Bakı Dövlət Universitetində müəllim kimi çalışmağım mənim üçün çox xoşdur. Tələbələrlə dərs prosesində onların nəzəri biliklərinin zənginləşdirilməsi ilə yanaşı, həm də elmə maraqlarının artırılmasını təmin etməyə çalışıram. Düşünürəm ki, gənc yaşda nailiyyətlərə yiyələnməyim onlarda inkişafa stimul yaradır. Ölkə xaricində qazandığım təcrübələri onlarla bölüşərək bu həvəsi artırmağa çalışıram. Sevindirici haldır ki, tələbələrimin sorağı bu gün müxtəlif ölkələrdən gəlir. Onlar təhsillərini magistratura səviyyəsində müxtəlif ölkələrdə davam etdirirlər. Qeyd edim ki, əsasən, ingilis bölmələrində tədrislə məşğulam. Tələbələrin təhsillərini ingilis dilində almaları və ixtisaslarına ingilis dilində yiyələnmələri onlara gələcək perspektivlər açır. Həmin tələbələr ölkə xaricində təhsillərini davam etdirməklə bağlı problem yaşamırlar.

Bu gün gənclərin fəaliyyəti üçün çox gözəl şərait var və onlar bundan maksimum dərəcədə istifadə etməlidirlər. Xüsusən gənc alimlərimiz ölkənin elmi potensialının daha da artırılması və dünya elmi ictimaiyyəti tərəfindən yüksək səviyyədə qəbul olunması üçün elmi tədqiqat işlərini yüksək səviyyədə qurmalıdırlar. Bu prosesə xüsusən vətənpərvərlik hissi də əlavə edilməlidir.

Prezident İlham Əliyevin fəaliyyətində prioritet istiqaməti təşkil edən gənclər siyasəti ölkə gənclərini gələcək inkişafa səsləyir. Bu inkişafa gedən yolda biz gənclər hər zaman ölkə başçımızın yanındayıq.

***Elvin MƏLİKOV,***
***BDU-nun Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müəllimi, kimya üzrə fəlsəfə doktoru***

● Gənclər evi

# Sabahın qurucuları

## Sumqayıtı yaradanların davamçıları

**Azərbaycanda həyata keçirilən gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu gün gənclər ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar və digər tədbirlərin təşkilində mühüm rol oynayırlar. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar sayəsində bu təbəqə artıq cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Bu, bir daha göstərir ki, dövlətin gənclərə dəstəyi bütün sahələri əhatə edir.**







Ötən əsrin 40-cı illərində yaradılan Sumqayıt "gənclər şəhəri" deyə çağrılır. Şəhərin quruculuğunda bu sosial təbəqənin müstəsna əməyi olmuşdur. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaranması, 2 fevral Gənclər Gününün təsis edilməsi, Azərbaycan Gənclərinin forumlarının keçirilməsi, normativ hüquqi sənədlərin, "Gənclər siyasəti haqqında" Dövlət proqramlarının qəbul edilməsi, 2011-ci ildə Gənclər fondunun və bu gün ölkəmizdə qırxa yaxın Gənclər evinin yaranması məhz gəncliyə verilən böyük dəyərin bariz nümunəsidir. Sumqayıt gəncləri də dövlətin diqqət və qayğısı ilə daha geniş şəkildə əhatə olunub.

13 yanvar 2015-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə "Sumqayıt Gənclər Evi" sosial xidmət müəssisəsinin açılışı olub. Üç mərtəbə və terrasdan ibarət binanın girişində ulu öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə həsr edilən xüsusi guşə yaradılıb. Binada gənclər üçün kitabxana, caz klub, geniş səhnəsi olan kafe-bar, art-studiya, internet klub, xarici dillər üzrə danışıq klubu, biznes və hüquqi məsləhət mərkəzləri, vətənpərvərlik klubu, "qaynar xətt" xidməti, peşəyönümü mərkəzi, masaüstü oyunlar otağı, bütün müasir və zəruri avadanlıqla təchiz edilmiş videostudiya, istedadların hazırlığı laboratoriyası, "dəyirmi masa" zalı, 133 yerlik akt zalı var. Tədbirlər zamanı regionlardan gələn gənclərin yerləşmələri üçün bir və iki nəfərlik 6 otaq da yaradılıb.

Gənclər evinin direktoru Pəri Vəliyeva bizimlə söhbətində bildirdi ki, fəaliyyət göstərdiyi dövrdə doqquz könüllü müsabiqəsi elan olunub. Bu müsabiqədə ümumilikdə 400-ə yaxın gənc könüllülük fəaliyyətinə cəlb olunub. Könüllü gənclər müəllim köməkçisi olaraq fəaliyyət göstərirlər. Onlar burada bir sıra bacarıqlara yiyələnir, şəhərdə ictimai fəaliyyətlərə qoşulur, həmçinin gələcəkdə öz karyeralarını qurma imkanlarını genişləndirmək üçün imkanlar əldə edirlər. Könüllü gənclər, həmçinin vətənpərvərlik, kitab, eko və teatr klubları yaradaraq öz bacarıqlarını nümayiş etdirirlər.

Bunların arasında teatr klubu daha maraqlıdır. Klubun üzvü olan gənclər müxtəlif mövzularda tamaşalar hazırlayırlar. İndiyədək onlar vətənpərvərlik mövzusunda bir neçə tamaşa səhnələşdirərək öz bacarıqlarını nümayiş etdiriblər.

Sumqayıt Gənclər evinin direktoru P.Vəliyeva onu da vurğuladı ki, 3 ay davam edən könüllülük fəaliyyətinin sonunda gənclərə şəhər Gənclər və idman baş idarəsinin sertifikatları təqdim edilir. Bununla yanaşı, Gənclər evində fəaliyyət göstərən "Sağlam Düşüncə" gənclər təşkilatının vasitəsilə beynəlxalq proqramlar əsasında xarici ölkələrlə əlaqə yaradılır və qarşılıqlı şəkildə təcrübələr bölüşdürülür. Türkiyə, Serbiya, Rusiya və Polşadan xarici könüllülər də Gənclər evində qonaq olarkən öz təcrübələrini sumqayıtlılarla bölüşüblər. Burada onlara, həmçinin Azərbaycan dili və mədəniyyəti, dövlət gənclər siyasəti haqqında ətraflı məlumat verilib. Gənclərin müasir peşə fəaliyyətlərinə yiyələnməsi, elmi ünsiyyət mühitinin yaradılması, maraq sahələrinə uyğun bilik və bacarıqların öyrənilməsi üçün mütəmadi təlim, seminar və "dəyirmi masa"lar təşkil olunur. Gənclər evi onların təşəbbüslərinin dəstəklənməsində də böyük rol oynayır.

Bu gün gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün ingilis və rus dili kursları, karyera mərkəzi, kompüter, şahmat, rəsm, gitara, toxuculuq, robotexnika dərsləri, dizayner proqramları, səsyazma və fotostudiya dərnəkləri onların tam ixtiyarına verilib. O cümlədən, gənclərin psixoloji durumunun yaxşılaşdırılması ilə bağlı fərdi və qrup şəklində təlim və psixoloji sorğular həyata keçirilir.

Gənclər evində "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına uyğun olaraq vətənpərvərlik, dövlətçilik, sağlam həyat tərzinin, humanizm dəyərlərinin təbliği, sosial müdafiəyə ehtiyacı olan gənclərə peşə reabilitasiyası, sahibkarlıq və məşğulluq imkanlarının artırılması, erkən nikahlar, valideyn-övlad münasibətlərinin tənzimlənməsi diqqətdə saxlanılır, Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin təbliğinə xidmət edən "Mən azərbaycanlıyam", "Xəmsə", "Kim, harada, nə zaman", "Brayn ring" intellektual oyunlar həyata keçirilir.

Xaricdə təhsil alan gənclərlə keçirilən diskussiyalar da böyük maraq doğurur. Həmin gənclər öz bilikləri və siyasi görüşləri ilə təhsil aldıqları ölkədə respublikamızın gənc siması rolunu oynayırlar. Tətil günlərində onlarla keçirilən diskussiyalar böyük maraq doğurur.

Pəri Vəliyeva dedi ki, Gənclər evində şəhərimizin yaşlı nəslinin nümayəndələri ilə vaxtaşırı görüşlər keçirilir. Onların həyat təcrübəsi, əmək fəaliyyətləri barədə söhbətlərdə gənclər məmnuniyyətlə iştirak edirlər. Fiziki qüsurlu insanlarla görüşlər də maraq kəsb edir. Hazırda qüsurlu gənclərin ictimai fəaliyyətə cəlb edilməsi istiqamətində xüsusi işlər aparılır.

Gənclər evinin direktoru söhbətinə davam edərək bildirdi ki, hazırda Sumqayıt şəhərinin 70 illik yubileyi ərəfəsindəyik. "Sumqayıt - doğma şəhərim mənim" adlı tədbir və həmçinin görkəmli Azərbaycan şairi, mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar tədbirlərə hazırlıq görülür.

Bu gün sumqayıtlı gənclərin iqtisadi-siyasi, elm, idman, mədəniyyət və digər sahələrdə irəliləməsi, uğurlar qazanması üçün hər cür şərait yaradılıb. Uzun illərin sınağından keçib gələn dövlət gənclər siyasətinin yeni mərhələsi ardıcıl islahatların nəticəsidir. Bu, əhalinin bütün təbəqələri kimi, gənclərin də hərtərəfli yararlanmasına zəmin yaradır. Əminliklə demək olar ki, sumqayıtlılar bu yöndə görülən işlərin önündə olacaqlar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● Vətənpərvərlik tərbiyəsi

# İşıqlı gələcəyə aparan inamlı addımlar

**Cəmiyyətin inkişafında, təşəkkül tapmasında, daim uğurlar qazanmasında gəncliyin rolu əvəzsizdir. Bu gün böyüməkdə olan gənc nəslin düzgün istiqamətdə tərbiyə olunması, sabahkı həyata hazırlanması, ürəkaçan uğurlar əldə etməsi ölkə rəhbərinin daxili və xarici siyasətində önəmli yer tutur.**




Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və genişləndirilib şaxələndirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Gənclik böyük qüvvədir, cəmiyyətin güc mənbəyidir, dinamikasıdır. Hazırda Azərbaycan gəncliyinin Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi dövlətimizi daha da möhkəmləndirir, xalqın ölkə rəhbərinə olan inamını, dəstəyini daha da artırır. Respublikada gənclər siyasəti illərdir ki, dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Dövlətin göstərdiyi qayğı nəticəsində ölkə gəncləri bu gün daha parlaq gələcəyə doğru inamla addımlayırlar.

Cəmiyyətimizin ən fəal təbəqəsi olan gənclərin, xüsusilə orduda xidmət edən gənclərin ölkə rəhbəri ətrafında bir araya gəlməsi dövlətin gələcəyi baxımından böyük rol oynayır. Yaxın günlərdə xidməti vəzifələrini yerinə yetirərək ordu sıralarından tərxis olunmuş gənclərlə görüşüb söhbət edərkən bir daha əmin olduq ki, Azərbaycan gəncliyi Prezident İlham Əliyevin ətrafında sıx birləşərək dövlət başçısının həyata keçirdiyi uğurlu siyasəti dəstəkləyir.

Xidməti vəzifəsini layiqincə yerinə yetirib böyük qürurla valideynlərinin yanına qayıdan gənc **Mətləb Rüstəmov** dedi ki, Vətənə xidmət etmək, torpaqlarımızın keşiyində dayanmaq müqəddəs vəzifədir. Xidmətdə olduğum müddət ərzində həm efir, həm də mətbuat vasitəsilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin görüş və çıxışlarını izləyirdim. Ölkəmizin rəhbəri cəmiyyətin inkişafında, dövlətin möhkəmlənməsində gənclərə güvənir, onlara böyük önəm verir. Biz də Prezidentimiz ətrafında sıx birləşərək, onun xarici və daxili siyasətini dəstəkləyirik. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının, həmçinin digər fərman və qərarların verdiyi imkanlardan respublikanın bütün gəncləri kimi, ordu gəncləri də bəhrələnir və Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edərək ölkə rəhbərliyinin onlara göstərdiyi etimadı doğruldurlar. Prezidentimiz bu il gənclərin forumunda proqram xarakterli çıxışında ordu gənclərinə böyük dəyər və qiymət verərək demişdir: "...Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclər olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin əksəriyyəti gənclərdir". Bizlərə böyük önəm verdiyinə görə bütün gənclər adından ölkə rəhbərinə minnətdarlığımı bildirirəm. Qürurla və tam inamla deyirəm ki, biz Prezident İlham Əliyevin gənclər siyasətini dəstəkləyir, dövlətimizin, dövlətçiliyimizin daha da möhkəmlənməsi, yurdumuzun qorunması üçün onun bütün göstəriş və sərəncamlarını yerinə yetirməyə həmişə hazırıq.

Həmsöhbət olduğum gənc **Sənan Rəşidli** də ordu sıralarından yenicə qayıdıb. Sənan xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirib. Əldə silah torpaqlarımızın keşiyində dayanıb, yurdumuzu erməni işğalçılarından qoruyub. Mülki həyata yenicə qədəm qoymuş Sənan Rəşidli Azərbaycan Prezidenti İlham Əliyevin gənclər siyasətindən, gənclərə göstərdiyi diqqət və qayğıdan ürəkdolusu danışdı:

- Düşünürəm ki, Prezident İlham Əliyev gənclər siyasətində yeni mərhələnin, yeni dövrün başlanğıcını qoyub. Biz daim şahidi oluruq ki, gündən-günə cəmiyyətdə gənclərin rolu, nüfuzu artır. Bütün bunlar isə yaxın gələcəkdə qazanılacaq uğurlardan, qələbələrdən xəbər verir. Ölkə rəhbəri gənclərin böyüməsində, tərbiyə olunmasında milli dəyərlərimizə böyük önəm verərək deyib: "...Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər". Prezidentimiz, həmçinin biz gənclərə inanır, güvənir və məhz buna görə də qarşımızda çox mühüm vəzifələr qoyaraq deyir: "Sizin üçün başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdır. Gənclər, mən sizə inanıram, güvənirəm". Göründüyü kimi, Prezidentimiz biz gənclərə inanır və bizim cəmiyyətdə daha fəal olmağımızı, dövlətimizin daha da inkişaf edib möhkəmlənməsində iştirakımızı mühüm bir vəzifə kimi qarşımıza qoyur. Biz gənclər isə dövlət başçısının qarşımıza qoyduğu bu mühüm vəzifələri yerinə yetirmək üçün Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşəcək, müstəqilliyimizi daha da möhkəmlədəcək və ölkəmizi inkişaf etdirəcəyik. Gənclik böyük qüvvədir. Biz bu böyük qüvvəmizlə daim Prezidentimizə dəstək olmalı, bir vətəndaş kimi xalq və Vətən qarşısında məsuliyyətimizi hər an, hər dəqiqə hiss etməliyik.

Parlaq gələcəyimizin təminatçısı olan Azərbaycan gəncləri müstəqilliyimiz naminə bütün güclərini səfərbər edir, dövlətimizin, dövlətçiliyimizin inkişafı üçün var qüvvələri ilə çalışır, yürütdüyü aydın, dəqiq, uzaqgörən siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

***Vahid MƏHƏRRƏMOV***

# Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə *açıq tender elan edir*

**LOT 1:** Condair markalı nəmləndirmə avadanlıqlarını enerji təchizatı ilə təmin etmək məqsədilə elektrik mallarının satın alınması və quraşdırılması;

**LOT 2:** Server tipli kompüterlər üçün ehtiyat hissələrinin satın alınması.

ARDNF Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli, 240 №-li Fərmanı ilə yaradılmış dövlət təsisatıdır. ARDNF barədə məlumatlarla http://www.oilfund.az ünvanında yerləşən internet səhifəsində tanış olmaq olar.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq tender ARDNF üçün malların, işlərin və xidmətlərin satın alınmasını əhatə edir.

Tender prosedurları **12 iyul 2019-cu il yerli vaxtla saat 10:00-da,** ARDNF-in yerləşdiyi Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında tender təkliflərinin (zərflərinin) açılması ilə başlanacaqdır.

Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *podratçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının ixtisas göstəricilərinə dair məlumat;*
- *tender təklifi (tender təklifi qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı (bank zəmanəti) ilə birlikdə);*
- *podratçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı.*

Podratçılardan tələb olunan sənədlər **02 iyul 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər faks, elektron poçt və ya adi poçtla, tender təklifləri isə hər LOT üzrə ayrı-ayrı zərflərdə olmaqla **11 iyul 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında yerləşən ARDNF-ə təqdim edilməlidir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

LOT 1 üzrə iştirak haqqı 100 (bir yüz) manat və LOT 2 üzrə iştirak haqqı 50 (əlli) manat məbləğində müəyyən edilmişdir. Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən podratçılara müvafiq LOT üzrə iştirak haqqı göstərilən hesaba ödənildikdən sonra təqdim ediləcəkdir.

**Azərbaycan Respublikası Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**

**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T BİK: NABZAZ 2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Podratçıların səlahiyyətli nümayəndələri tender təkliflərinin (zərflərin) açılmasında iştirak edə bilərlər.

Tender ilə əlaqədar suallar və sorğular **TSK2019@oilfund.az** ünvanlı elektron poçta və ya (+994 12) 565-87-55 nömrəli faksa göndərilə bilər. Əlaqə telefonu: (+994 12) 498-77-53, əlaqələndirici şəxslər: LOT 1 üzrə Elşad Bağırov (dax.: 1010), LOT 2 üzrə Nailə Məmmədli (dax.: 9005), hüquqi məsələlər üzrə Kəmalə Rəhimova (dax.: 8023)).

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Mərkəzi Bankı nəqliyyat vasitələrinin satın alınması üzrə *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq 2 (iki) ədəd nəqliyyat vasitəsinin satın alınması üzrə açıq tender keçirir.

Tender proseduru 16 iyul 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə Azərbaycan dilində tender təklifi (tender təklifi 29 avqust 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçıların son 2 (iki) il ərzində malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar. Son 2 (iki) il ərzində xidmət göstərilən müştərilərin adları və göstərilən işlərin açıqlaması verilməlidir;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 15 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 04 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004,**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK: NABZAZ2C**

Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilmə müddəti: satınalma müqaviləsi imzalandığı gündən 60 (altmış) gün müddətində.

Qiymətləndirmə meyarları: qiymət amili və zəmanət şərtləri.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxs: Zöhrab Səfərəliyev (İnzibati departament). Telefon: 493-11-22, daxili (101).

***Tender komissiyası***

# Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin yeni ofisi tələbələrin istifadəsinə verilib

Srağagün Lənkəran Dövlət Universiteti nəzdində "Azercell"in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin yeni ofisinin açılışı olub.

"Akhundoff Group" şirkəti tərəfindən müasir avadanlıqla təchiz olunan ofisdə gənclər üçün sahibkarlıq və informasiya texnologiyaları mövzularını əhatə edən təlimlərin keçirilməsi, onlara müxtəlif layihələrin hazırlanmasında yardım edilməsi nəzərdə tutulub.

Tədbirdə çıxış edən "Azercell"in Korporativ ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya Lənkəran Dövlət Universitetinin və "Akhundoff Group" şirkətinin rəhbərliklərinə bu təşəbbüsü dəstəklədiklərinə görə təşəkkür edib. 2009-cu ildə yaradılan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin fəaliyyəti barədə məlumat verib, yeni açılan ofisin gənclərə bu sahədə əvəzsiz təcrübə bəxş edəcəyini söyləyib. O, həmçinin regional barama ofislərinin paytaxt və bölgə universitetlərində təhsil alan tələbələri startap sahəsində bərabər inkişaf imkanları ilə təmin edəcəyini vurğulayıb.

Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov yeni istifadəyə verilən mərkəzin əsas məqsədinin kənd təsərrüfatı üçün ixtisaslı kadrlar, proqramçılar yetişdirmək olduğunu bildirib.

Onu da qeyd edək ki, "Azercell" gənclərin peşəkar inkişafına və onların mütərəqqi ideyalarının həyata keçirilməsinə xüsusi diqqət ayırır. Bu istiqamətdə "Azercell"in təşəbbüsü ilə yaradılan ölkənin ilk biznes inkubatoru - Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin müstəsna rolu olub. "Azercell" və "Paşa Bank"ın dəstəyi ilə mərkəz fəaliyyəti boyunca bir çox layihələrin müstəqil şirkətə çevrilməsinə yardım edib, müxtəlif tədbirlər, seminarlar və təlimlər keçirib.

***"Azərbaycan"***

# Beynəlxalq elm müsabiqəsinin qalibi bəlli oldu

UNEC-də III Science Slam beynəlxalq elm müsabiqəsi keçirilib.




Müsabiqənin final mərhələsində universitetin rəhbərliyi, müəllim-professor heyəti və tələbələrlə yanaşı, UNEC İctimai Nəzarət Şurasının üzvləri, əməkdar elm xadimi, professor Şahlar Əsgərov, "XXI Əsr" Təhsil Mərkəzi İctimai Birliyinin rəhbəri, təhsil üzrə ekspert Etibar Əliyev, Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü də iştirak ediblər.

UNEC-də təşkil edilən beynəlxalq müsabiqənin əsas fəlsəfəsi elmin informasiyalarla dolu, anlaşılmayan termin və formullarla deyil, tam fərqli üslubda və prizmadan populyarlaşdırılmasıdır.

III Science Slam müsabiqəsinə UNEC-in bütün fakültələri ilə yanaşı, ilk dəfə olaraq Zaqatala filialının da tələbələri qatılıb. Müsabiqənin formatına uyğun olaraq, fakültə qalibləri 10 dəqiqə ərzində öz araşdırmalarını anlaşılan, kreativ və maraqlı şəkildə təqdim ediblər. Tələbələrin elektron xidmətlər, dənizin neftdən təmizlənməsinə ekoloji yanaşma, istehlakçı davranış modeli, dəniz iqtisadiyyatı, informasiya texnologiyaları və sosial şəbəkələr, video oyunların iqtisadiyyatda rolu, irqi ayrı-seçkilik mövzuları barədə araşdırmaları böyük maraqla dinlənilib.

Təqdimatlardan sonra, qaydalara uyğun olaraq, qaliblərin çıxışları alqış sədaları ilə qiymətləndirilib. Xüsusi cihaz vasitəsilə ölçülən alqışın səs diapazonu qalibi müəyyənləşdirib. 91.3 desibel (dB) səs tezliyində alqış qazanan İqtisadiyyat fakültəsinin tələbəsi Elşən Qurbanov "Video oyunların insan həyatına təsiri" mövzusunda təqdimatı ilə UNEC III Science Slam müsabiqəsinin qalibi olub. Biznes və menecment fakültəsinin tələbəsi Məryəm Bağırzadə 90.4 dB ilə ikinci, Maliyyə və mühasibat fakültəsinin tələbələri Ləman Nəcəfova və Əsmər Heydərli isə 90.1 dB ilə üçüncü yerə layiq görülüblər.

Qeyd edək ki, Science Slam beynəlxalq elm yarışması Azərbaycanda ilk dəfə olaraq UNEC-də keçirilib. Bu müsabiqə dünya üzrə Azərbaycanın adını 6-cı ölkə olaraq Science Slam tarixinə yazıb.

# Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universiteti

*2019/2020-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün sənəd qəbulu*

***elan edir***

- 050101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi (əyani);
- 050102 Biologiya müəllimliyi (əyani);
- 050103 Coğrafiya müəllimliyi (əyani);
- 050105 Fizika müəllimliyi (əyani);
- 050107 İbtidai sinif müəllimliyi (əyani);
- 050108 İnformatika müəllimliyi (əyani);
- 050109 Kimya müəllimliyi (əyani);
- 050111 Korreksiyaedici təlim (əyani);
- 050112 Məktəbəqədər təhsil (əyani);
- 050114 Riyaziyyat müəllimliyi (əyani);
- 050116 Tarix müəllimliyi (əyani);
- 050118 Təhsildə sosial-psixoloji xidmət (əyani).

**Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- rektorun adına ərizə;
- şəxsiyyət vəsiqəsinin surəti (3 nüsxə);
- ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə) (3 nüsxə);
- əmək kitabçasından çıxarış (işləyənlər üçün);
- 3x4 sm ölçüdə 4 ədəd rəngli fotoşəkil;
- sağlamlıq haqqında arayış.

Sənədlər 10 avqust 2019-cu il tarixədək (şənbə və bazar günlərindən başqa) saat 10:00-dan 17:00-dək qəbul edilir.

**Məzunlara təhsil aldıqları ixtisaslar üzrə vahid formalı dövlət sənədi - diplom verilir.**

**Ünvan:** Bakı şəhəri, Həsən Əliyev küçəsi, 104, ADPU-nun II tədris binası "Davamlı təhsil və təlim" şöbəsi (otaq 710).
**Telefon:** (+99412) 465-29-76.

***Rektorluq***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universiteti

*2019/2020-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla yenidənhazırlanma təhsili almaq üçün sənəd qəbulu*

***elan edir***

- 050101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi (əyani);
- 050102 Biologiya müəllimliyi (əyani);
- 050103 Coğrafiya müəllimliyi (əyani);
- 050105 Fizika müəllimliyi (əyani);
- 050107 İbtidai sinif müəllimliyi (əyani);
- 050108 İnformatika müəllimliyi (əyani);
- 050109 Kimya müəllimliyi (əyani);
- 050111 Korreksiyaedici təlim (əyani);
- 050112 Məktəbəqədər təhsil (əyani);
- 050114 Riyaziyyat müəllimliyi (əyani);
- 050116 Tarix müəllimliyi (əyani);
- 050118 Təhsildə sosial-psixoloji xidmət (əyani).

**Yenidənhazırlanma təhsili almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- rektorun adına ərizə;
- şəxsiyyət vəsiqəsinin surəti (3 nüsxə);
- ali təhsil haqqında sənədin (diplomun) və diploma əlavənin surəti (3 nüsxə);
- əmək kitabçasından çıxarış (işləyənlər üçün);
- 3x4 sm ölçüdə 4 ədəd rəngli fotoşəkil;
- sağlamlıq haqqında arayış.

Sənədlər 10 avqust 2019-cu il tarixədək (şənbə və bazar günlərindən başqa) saat 10:00-dan 17:00-dək qəbul edilir.

**Ünvan:** Bakı şəhəri, Həsən Əliyev küçəsi, 104, ADPU-nun II tədris binası "Davamlı təhsil və təlim" şöbəsi (otaq 710).
**Telefon:** (+99412) 465-29-76

***Rektorluq***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

● **LOT 1 - yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000 manat**
**VÖEN: 1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **01 iyul 2019-cu il saat 18:00-a** qədər **AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr, Mirmahmud Kazımovski küçəsi, 134** ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 iyul 2019-cu il saat 16:00-da Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Turizm və Menecment Universiteti tədbirin keçirilməsinin satın alınması üçün

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT-1.** 2018-2019-cu tədris ilinin məzun mərasiminin keçirilməsi

Tender iştirakçılarına təklif edilir ki, bu layihə üzrə öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə, yazılı surətdə (Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23) təqdim etsinlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər.

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə tərtib olunmalıdır (başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

İştirak haqqı LOT üzrə aşağıdakı məbləğdə təşkil edir:
LOT -1. 200 manat.

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçılar iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**VÖEN: 1500817681**
**Hesab: AZ27İBAZ40090019445931153206**
**Bankın adı: ABB ASC Nərimanov filialı**
**VÖEN: 9900001881**
**Kod: 805540**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T.: İBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 12 iyun 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 20 iyun 2019-cu il saat 17:00-a qədər Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23 ünvanında yerləşən Azərbaycan Turizm və Menecment Universitetinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tenderdə iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender təklifi zərfləri 21 iyun 2019-cu il saat 10:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar.

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23, AZ1072

**Tel: (+994) 55 203 25 33**

***Tender komissiyası***

## "Azərsu" ASC-nin "Sutikinti" müəssisəsi qaynaq çubuğunun satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Mir Cəlal küçəsi 34 A, "Azərsu" ASC-nin "Sutikinti" müəssisəsinin təchizat şöbəsinə (əlaqələndirici şəxs - Əhəddin Həsənov, tel: 055-510-71-93) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş təkliflərini **29 may 2019-cu il saat 12:00-dan** gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı, Mir Cəlal küçəsi 34 A nömrəli ünvandakı inzibati binasında **30 may 2019-cu il saat 12:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Avropa Parlamentinə seçkilər başladı

Dünən Avropanın bir neçə ölkəsində Avropa Parlamentinə seçkilər start götürmüşdür. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Məlumata görə, Böyük Britaniya və Niderlandda seçki məntəqələri açılmışdır. Bu gün İrlandiya və Çexiya, sabah isə Latviya, Malta və Slovakiya sakinləri səs verəcəklər. Avropa İttifaqının (Aİ) digər ölkələrində seçkilər bazar günü keçiriləcək.

Ümumilikdə Avropa Parlamentinə seçkilərdə 28 ölkənin, o cümlədən Aİ-dən çıxmaq prosesini hələ də razılaşdırmamış Böyük Britaniyanın vətəndaşları iştirak edəcəklər.

Aİ ölkələrində səs vermək hüququna malik 426 milyon seçici var.

## İnterpol 50 uşağı cinayətkarların əlindən aldı



İnterpolun Tailand, ABŞ və Avstraliyada keçirdiyi "Blackwrist" adlı beynəlxalq əməliyyat uşaqlara qarşı seksual zorakılıq törədən cinayətkarları yaxalamağa imkan vermişdir. Bu barədə təşkilatın bəyanatında məlumat verilmişdir.

Qeyd olunur ki, cinayətkarların birinin üstündə olan qolbaqdan adını almış əməliyyata start 2017-ci ildə verilmişdir. O vaxt İnternetin kölgə seqmentində təxminən 63 min abunəçinin olduğu sayt aşkar edilmişdir. Uzun müddət orada uşaqlar - 13 yaşınadək oğlanlara qarşı zorakılıqla bağlı yeni materiallar müntəzəm şəkildə peyda olmuşdur. Cinayətkarların ilk qurbanlarının şəxsiyyətlərini 2017-ci ilin noyabrında müəyyənləşdirmək mümkün olmuşdur. Bundan iki ay sonra isə Tailand və Avstraliyada cinayətkarlar saxlanmışdır. Cinayətkarlar həm də ABŞ-da tapılmışdır.

İnterpolun əməliyyatı zamanı 50 uşağı xilas etmək mümkün olmuşdur. Təxminən 100 uşağın axtarışı davam edir. Cinayətkarlara gəldikdə isə, Tailandda saxlanmış saytın inzibatçısı Montri Salanqam 146 il həbs cəzası almışdır. Saxlanılanlardan daha ikisi müvafiq olaraq 36 və 40 il müddətinə azadlıqdan məhrum edilmişdir.

## Pakistan ballistik raketi uğurla sınaqdan keçirdi

Pakistanda həm adi, həm də nüvə başlığı daşıya bilən "Şahin-2" ballistik raketi uğurla sınaqdan keçirilmişdir. Bu barədə Pakistan ordusunun mətbuat katibi, general Asif Qafur məlumat vermişdir.

"Şahin-2" 1,5 min kilometrədək məsafədə hədəfləri vurmağa qadirdir. Qafurun dediyinə görə, raket Pakistanın ehtiyac duyduğu regional sabitliyi təmin etmək iqtidarındadır.

Raket Ərəbistan dənizindəki hədəfi uğurla vurmuşdur. Sınağı yüksək vəzifəli hərbçilər izləmişlər.

Pakistanın Baş naziri İmran Xan raketin istehsalçılarını, habelə mühəndisləri və hərbçiləri uğurlu sınaq münasibətilə təbrik etmişdir.

Xatırladaq ki, ötən il və bu ilin əvvəllərində Pakistan uzaqmənzilli və ortamənzilli raketləri sınaqdan çıxarmışdır.

*Təkrar*

## "Azərsu" ASC qaynaq aqreqatları və generatorlar üçün süzgəclərin, araqatı, paranit və kipkəclərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT-1:** Qaynaq aqreqatları və generatorlar üçün süzgəclərin satın alınması

**LOT-2:** Araqatı, paranit və kipkəclərin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288) ala bilərlər.

**Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **21 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **03 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **04 iyul 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 Plan profilaktik işlərin aparılmasında tələb olunan mail-materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı, maliyyə durumu qənaətbəxş olmalı, satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilmiş müvafiq sahədə peşəkar və təcrübəli olmalı, texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı, vergilər və digər icbari analoji hökumət ödənişləri üzrə icra vaxtı keçmiş olmamalıdır.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 150 (bir yüz əlli ) manat (ƏDV xaric) iştirak haqqını**

sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **20 iyun 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **01 iyul 2019-cu il saat 17:00-a qədər** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **02 iyul 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən cəmiyyətin 26-cı Beynəlxalq Xəzər Neft və Qaz sərgisində iştirakı üçün stend hazırlanması və tədbirin keçiriləcəyi məkanda quraşdırılmasına dair iş və xidmətlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "İD İDEAL SERVİS" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları Aliyə Ələsgərovaya atası

**SƏFAYIL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə bacısı

**ELZA FƏRƏCOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu və kollektivi Zoologiya kafedrasının dosenti Əbülfəz Tağıyevə anası

**TƏZƏXANIM QARDAŞXAN QIZI TAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev və "Azəraqrartikinti" ASC-nin kollektivi cəmiyyətin sədr müavini Səmayıl Quliyevə qardaşı

**SƏFAYIL ƏLƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Oğuzdan Mahir və Yusif Naxçıvanskilər AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə bacısı

**ELZA FƏRƏCOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 9055
Sifariş 1708
Qiyməti 40 qəpik